**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# TÜRK XALQLARI ƏDƏBİYYATINDA VÜCUDNAMƏLƏR: ARXİTEKTONİKASI VƏ MƏZMUN ÖZƏLLİKLƏRİ

| | |
|---|---|
| İxtisas: | 5717.01 Türk xalqları ədəbiyyatı<br>5719.01 – Folklorşünaslıq |
| Elm sahəsi: | Filologiya |
| İddiaçı: | Filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Elmira Fikrət qızı Məmmədova-Kekeç** |

Elmlər doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2022**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Türk filologiyası" şöbəsində yerinə yetirilmişdir.

Elmi məsləhətçi: Filologiya elmləri doktoru, akademik
**Gövhər Baxşəli qızı Baxşəliyeva**

Rəsmi opponentlər: Filologiya elmləri doktoru, professor
**Azadə Şahbaz qızı Musayeva**

Filologiya elmləri doktoru, professor
**Jalə Fazil qızı Əliyeva**

Filologiya elmləri doktoru, professor
**Səhər Hidayət qızı Orucova**

Filologiya elmləri doktoru, professor
**Seyfəddin Gülverdi oğlu Rzayev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.18 – Dissertasiya Şurası bazasında yaradılmış BED 1.18 – Birdəfəlik Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: Filologiya elmləri doktoru, akademik

_______________ **Gövhər Baxşəli qızı Baxşəliyeva**

Dissertasiya şurasının elmi katibi: Filologiya üzrə fəlsəfə doktoru, dosent

_______________ **Xanımzər Əli qızı Kərimova**

Elmi seminarın sədri: Filologiya elmləri doktoru, dosent

_______________ **Almas Qasım qızı Binnətova**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Vücudnamə insanın yaradılışı, ömrü və ölümündən bəhs edən bir janrdır. Daha dəqiq desək, insan ömrünün müxtəlif yaşlarını əks etdirən mətnlərdir. Bu janrın mövzu-ideya xüsusiyyətlərinin, məzmun və forma özəlliklərinin araşdırılması istiqamətində türk xalqlarının ədəbiyyatşünaslığında indiyə qədər müxtəlif tədqiqatlar aparılmışdır. Azərbaycan filologiyasında da bu və ya digər elmi məqalələrdə vücudnamələr araşdırma mövzusuna çevrilmiş, lakin ayrıca olaraq elmi-tədqiqat işi səviyyəsində öyrənilməmişdir. Azərbaycanda bu günə qədər vücudnamələrdən sistemli şəkildə bəhs edilməmiş, onlar arasında semantik və struktur vəhdətlə bağlı problemlər araşdırılmamışdır. Ümumtürk poeziyası kontekstində isə janrın inkişaf tarixi, məzmun və formaca dəyişmə paralellik və ardıcıllığı, ümumiyyətlə, tədqiqat mövzusu olmamışdır. Bütün bu məsələlər sadəcə Azərbaycan ədəbiyyatşünaslığında deyil, türk xalqlarının şifahi və yazılı ədəbiyyatları müstəvisində vücudnamələrin formalaşmasının, janrın tarixi poetikasının araşdırılmasını aktual problemə çevirir. Türk xalqlarının ortaq ədəbi-fəlsəfi əsərlərindən olan vücudnamələrdə mifoloji, tarixi, linqvistik, sosioloji istiqamətdə bir çox məsələlər də öz əksini tapdığı üçün onların toplanılması və bütövlükdə tədqiqata cəlb edilməsi janrın öyrənilməsində mühüm rol oynayır.

Beləliklə, həm şifahi, həm yazılı ədəbiyyatda örnəklərinə rast gəldiyimiz vücudnamələrin türk xalqları poeziyası müstəvisində müqayisəli şəkildə öyrənilməsi məsələsi Azərbaycan filologiyasının, eyni zamanda şərqşünaslığının aktual problemlərindəndir. Çünki müqayisəli türkoloji araşdırmalar orta əsrlərdən günümüzə qədər bu janrın sərhədlərini, digər şeir formaları ilə qarşılıqlı əlaqəsini müəyyənləşdirmək, tarixi inkişafda dəyişən, bəzən dövrün diqtəsinə tabe olan məzmun özəlliklərini izləmək, eyni zamanda, folklorla yazılı ədəbiyyatın da qarşılıqlı əlaqəsini, "mübadilə prosesi"ni öyrənmək istiqamətində mühüm nəticələr əldə etməyimizə imkan verir. Dissertasiyanı qələmə aldığımız müddətdə türk xalqlarının şifahi və yazılı ədəbiyyatından topladığımız 200-dən çox vücudnamə mətni və onlar arasında arxitektonik paralelliklər janrın kollektiv şüurda, həmçinin

fərdi üslubda məruz qaldığı inkişaf meyllərindən xəbər verir. İndiyə qədər Azərbaycan ədəbiyyatşünaslığında vücudnamə sadəcə aşıq yaradıcılığının predmeti kimi öyrənilmiş, müqayisəli ədəbiyyatşünaslıq kontekstində araşdırılmadığı üçün janrın inkişafında yazılı ədəbiyyatın və təsəvvüfi şeirin rolu nəzərə alınmamışdır. Bu cür ümumi baxış nəticəsində türk xalqlarının həm şifahi, həm yazılı ədəbiyyatında vücudnamələrin arxitektonikasının tədqiqi məsələyə kompleks yanaşma tələb edir.

Məhz bu cür komparavistik təhlillər janrın formalaşmasını və inkişaf mərhələlərini, onun ilkin qaynaqlarını üzə çıxarmaq baxımından əhəmiyyət daşıyır.

Tədqiqat işinin bütün fəsilləri türk xalqlarının ədəbiyyatının və folklorşünaslığın qarşısında duran aktual problemlərə həsr olunmuşdur. Azərbaycan folklorşünaslığında vücudnamələrin ilk nümunəsi kimi Aşıq Abbas Tufarqanlıya məxsus mətn qeyd olunur. Halbuki dissertasiyada vücudnamənin inkişaf tarixinin Abbas Tufarqanlı yaradıcılığından daha öncəki dövrə aid bir hadisə olduğu göstərilir. Bu baxımdan, dissertasiyada janrın inkişafı ilə bağlı Azərbaycan folklorşünaslığında indiyə qədər olan mülahizə və fikirlərə yenilik gətirilmişdir.

Ümumtürk şifahi xalq ədəbiyyatında olan vücudnamələrin sistemli şəkildə öyrənilməsi folklorşünaslıq baxımından vacibdirsə, orta əsrlərdə mövcud olan və müasir yazılı ədəbi nümunələr kimi diqqəti cəlb edən vücudnamələrin də araşdırılması ümumilikdə ədəbiyyatşünaslıq üçün aktuallıq kəsb edən məsələlərdəndir.

Ədəbiyyatşünaslıq üçün daima aktuallığını saxlayan məsələlərdən biri vəzn və janr problemidir. Vücudnamələrin də bu müstəvidə araşdırılması vacib bir məsələ olaraq diqqəti cəlb edir. Vücudnamə indiyə qədər, adətən, janr müstəvisində deyil, aşıq şeirinin bir şəkli olaraq öyrənilmişdir. Lakin mətnlərarası əlaqədə vücudnamənin bir janr olaraq formalaşmasında türk xalqlarının folklorunda və yazılı ədəbiyyatında onun əsrlər boyu sürən mərhələli inkişafını nəzərə almaq lazımdır. Məzmun etibarilə vücudnamələrlə bir çox paralellikləri olan dövriyyələrin müqayisəli şəkildə öyrənilməsi və janrın sərhədlərinin də müəyyənləşdirilməsi dissertasiyanın aktual məsələlərindən-

dir. Ruhun kainatda və bədəndə dövr etməsindən bəhs edən dövriyyələrlə vücudnamələr arasındakı fərqli və oxşar cəhətlər dissertasiyanın ikinci fəslində öyrənilir.

Vücudnamələrlə ustadnamələrin, həmçinin əlifnamələrin də oxşar və fərqli cəhətləri də dissertasiyanın ikinci fəslində tədqiq edilir. Çünki vücudnamə və ustadnamə indiyə qədər aşıq şeirinin müxtəlif şəkilləri, hətta qoşmanın şəkilləri kimi araşdırılmış, bu iki janrın arxitektonikasında ümumi cəhətlərin olması vurğulanmamaqla yanaşı, fərqli özəlliklərindən də bəhs edilməmişdir.

Dissertasiyada vücudnamələrin qaynaqları olaraq Quran, təsəvvüf, hədislər və s. kimi bu janrın mövzusunun formalaşmasında mühüm rol oynayan mənbələr və təsir dairəsi üzə çıxarılmışdır. Bu qaynaqların müəyyənləşdirilməsi janrın ümumi inkişafında ənənəyə bağlılığın izlərini araşdırmağa imkan vermişdir.

Tədqiqat işində həmçinin vücudnamələrin arxitektonikasının formalaşmasında mühüm olan ünsürlər – təhkiyə qəlibləri və formullar da tədqiqata cəlb edilmişdir. Türk mifologiyasından başlayaraq ən yeni vücudnamə mətninə kimi arxitektonik universallığı təmin edən arxetiplərin öyrənilməsi janrın strukturunun tədqiqində mühüm rol oynayır. Eyni zamanda, müxtəlif dövrlərdə müəllifdən müəllifə ötürülən qəlib və formullar da vücudnamə yaradıcılığında ənənəyə bağlılığın poetik açarlarını və standartlarını müəyyənləşdirməyi asanlaşdırır.

Dissertasiyada vücudnamələrin məzmun təsnifatı da aparılır, əsrlər boyu janrın məzmun çalarlarındakı yeniliklər izlənilir, səciyyəvi olanlar eyni bölgü altında qruplaşdırılır.

İnsanın yaş mərhələləri ilə bağlı şeir şəkli kimi diqqəti cəlb edən vücudnamələr haqqında Azərbaycan ədəbiyyatşünaslığında müxtəlif məqalə və tədqiqatlarda araşdırmalar aparılmışdır. Folklorla bağlı elmi-nəzəri kitab və dərsliklərdə rast gəldiyimiz bu məlumatlar, əsasən, XX-XXI əsrin tədqiqatçılarının araşdırmalarını əhatə edir. Həmin müəlliflər sırasında Firudin bəy Köçərli, Həmid Araslı, Əzizə Cəfərzadə, Paşa Əfəndiyev, Sədnik Paşayev, Qara Namazov, Azad Nəbiyev, Məhərrəm Qasımlı, Mahmud Allahmanlı kimi folklorşünas alimlərin əsərlərini qeyd edə bilərik. Bu araşdırmalarda vücudnamələrin məzmun və forma özəllikləri qeyd edilmişdir.

Şifahi və yazılı ədəbiyyatda insan ömrünün mərhələləri ilə bağlı şeir şəkli kimi diqqəti cəlb edən vücudnamələr bir çox türk xalqlarının ədəbiyyatı üçün səciyyəvidir. Qeyd edək ki, yalnız Azərbaycan ədəbiyyatşünaslığında bu şeir şəkli vücudnamə adlandırılmaqdadır. Türkiyə ədəbiyyatşünaslığında "yaşnamə", "yaş dastanı" terminləri ilə ifadə olunan bu poetik formanın türkiyəli alimlər tərəfindən Azərbaycan variantı ilə müqayisəli izahı diqqəti cəlb edir. Əslində, bizim də tədqiqatlarımızda bu məsələ vurğulanmışdır. Orta çağa xas vücudnamələrdə bəzmi-ələstin və ölümdən sonra axirət dünyasının təsviri daha geniş yer alır və "ruh aləmi"nin geniş təsviri diqqəti cəlb edir. Azərbaycanlı folklorşünas prof., f.e.d. Məhərrəm Qasımlı vücudnamə sözünün qeyd edilən məzmundan irəli gəldiyini, vəhdəti-vücud təlimi ilə bağlı olduğunu nəzərə çatdırır. Əslində, vücudnamə termini bu şeir şəkli üçün Azərbaycanda vahid termin kimi bütün ədəbiyyatşünaslar tərəfindən qəbul olunsa da, bəzi folklorşünaslar terminin epiteti və ya əlavəsi kimi, *tərcümeyi-hal* (Q.Namazov, Ə.Eldarova, M.Həkimov), *bəyani-hal* (M.Hacıyeva, M.Rıhtım), *ustadnamə* (M.Həkimov), *əvvəl-axır* (Q.Namazov, Ə.Eldarova), *mehracnamə* (Q.Namazov) kimi istilahlardan da aydınlaşdırıcı söz kimi istifadə etmiş, məzmununu açıqlamaq istəmişlər.

Ümumiyyətlə, yazılı ədəbiyyatda mütəsəvvif şair Əhməd Yəsəvinin yaradıcılığından başlayan bu janr haqqında nəzəri məlumatlara daha çox XX əsr alim və tədqiqatçılarının əsərlərində rast gəlirik. Janr haqqında elmi-nəzəri bilgilər əksərən XX əsrin məşhur folklorçu alimlərinin şifahi xalq ədəbiyyatı ilə bağlı əsərlərində verilir. Vücudnamə ilə bağlı tədqiqatlar müxtəlif kitabların və dissertasiyaların müəyyən fəsillərində, eləcə də ayrıca olaraq elmi məqalələrdə işlənilmişdir. Həmin tədqiqatları iki qrupa bölə bilərik:

1. Nəzəri baxımdan vücudnamələrdən bəhs edən müəlliflər;
2. Ayrı-ayrı aşıqların yaradıcılığından bəhs edərkən janra münasibət bildirən müəlliflər.

Birinci qrupa daha çox dərslik və folklorla bağlı nəzəri ədəbiyyat müəlliflərinin elmi mülahizələrini daxil edə bilərik.

Əzizə Cəfərzadənin "Şairnamə və vücudnamələr" adlı məqaləsində janr haqqında elmi-nəzəri məlumatlar verilir.

Vücudnamənin forma xüsusiyyətləri ilə bağlı aparılan bir çox

araşdırmalarda onun qoşma və gəraylı şəklində olması qeyd olunur. Türk xalqlarının vücudnamə ənənəsində isə forma baxımdan rəngarəngliyin mövcudluğu müşahidə edilir.

Azərbaycan ədəbiyyatşünaslığında indiyə qədər vücudnamə bir janr olaraq deyil, aşıq yaradıcılığı ilə bağlı bir şeir şəkli kimi öyrənilmişdir. Əslində janr yalnız aşıq yaradıcılığı ilə məhdudlaşmadığı üçün onun sərhədlərini saz ifaçılarının yaradıcılığı ilə izah etmək olmaz. Bu janr sadəcə aşıqların daha çox müraciət etdikləri bir forma kimi diqqəti cəlb edir. Ə. Cəfərzadə öz məqaləsində Azərbaycan aşıqları ilə yanaşı, Türkiyə ozanlarının da vücudnamə yaradıcılığından bəhs edir[1].

Prof, f.e.d. Azad Nəbiyev "Azərbaycan aşıq məktəbləri" adlı kitabında vücudnamə haqqında elmi-nəzəri məlumat verməklə yanaşı, onu qoşmanın bir növü hesab edir[2]. Ümumiyyətlə, vücudnamənin şəkli xüsusiyyətləri ilə bağlı tədqiqatçılar arasında fikir ayrılığı mövcuddur. Azad Nəbiyev vücudnaməni sadəcə qoşma formasında olan şeir şəkillərindən hesab edir.

Vücudnaməni elmi baxımdan öyrənən alimlərimizdən biri də prof., f.e.d. Qara Namazovdur. "Azərbaycan aşıq sənəti" adlı tədqiqatında aşıq yaradıcılığının bir çox janr və şəkilləri kimi, bu şeir formasından da bəhs edən folklorşünas onu daha çox tərcümeyi-hal kimi təqdim edir. Qara Namazov vücudnamələri izah edərkən daha çox məzmunla bağlı cəhətlərə diqqət yetirir, forma xüsusiyyətlərinə toxunmur[3].

Müstəqillik dövründən sonrakı tədqiqatlardan biri kimi Əminə Eldarovanın "Azərbaycan aşıq sənəti" adlı kitabında da vücudnamədən bəhs edilir. Onun tədqiqatında janrın poetik forması ilə bağlı bilgi verilir, stabil quruluşunun olmaması da diqqətə çatdırılır[4].

Azərbaycanın görkəmli folklorşünaslarından prof., f.e.d. Paşa Əfəndiyevin də araşdırmalarında vücudnamədən qısa şəkildə bəhs edilir. O da poetik forma olaraq qoşma və gəraylını janrın əsas struktur əlaməti kimi göstərir[5].

---

[1] Cəfərzadə, Ə. Milli bağçamızdan yarpaqlar. Şairnamə və vücudnamələr, II yarpaq // "Azərbaycan" jurnalı, – 1999, sayı 10, – s. 171-175

[2] Nəbiyev, A. Azərbaycan aşıq məktəbləri / A.Nəbiyev – Bakı: Bakı Universiteti nəşriyyatı, – 2004. – s. 279

[3] Namazov, Q. Azərbaycan aşıq sənəti / Q.Namazov – Bakı: Yazıçı, – 1984. – s. 60

[4] Eldarova, Ə. Azərbaycan aşıq sənəti / Ə. Eldarova – Bakı: Elm, – 1996, – s. 51

[5] Əfəndiyev, P. Azərbaycan şifahi xalq ədəbiyyatı / P. Əfəndiyev – Bakı: Maarif

Prof., f.e.d. Mürsəl Həkimov isə poetik forma ilə bağlı daha geniş məlumat verir və doğru nəticəyə gəlir[6]. Ümumiyyətlə, vücudnamə haqqında ən geniş və əhatəli elmi-nəzəri məlumatın verildiyi mənbələrdən biri də Mürsəl Həkimovun tədqiqatıdır. Lakin folklorşünas alim vücudnamənin poetik formaca genişliyindən, aşıq şeirinin bütün formalarında qələmə alına biləcəyindən bəhs etsə də, daha sonrakı mülahizələrində bu şeir şəklinin qafiyə quruluşunu göstərərkən qoşma və gəraylı üçün səciyyəvi olan qafiyə sistemini müəyyənləşdirir. Bu isə forma ilə bağlı qeyd olunan nəzəri fikirlə təzad yaradır.

Vücudnamələrlə bağlı ikinci qisim müəlliflər isə daha çox müəyyən aşıq və şairlərin yaradıcılığından bəhs edərkən, fikir söyləmişlər. Bunlar isə aşağıdakılardır:

Prof, f.e.d. Sədnik Paşayev "Nizami və xalq əfsanələri" adlı tədqiqat əsərində Nizami Gəncəvinin şifahi xalq ədəbiyyatı ilə bağlı qaynaqlarından bəhs edərkən vücudnamələrə toxunur. Folklorşünas alim Nizami Gəncəvinin də vücudnamə janrına müraciət etməsini vurğulayır[7].

Ağalar Mirzəyevin "Xaltanlı Tağının yaradıcılıq yolu" adlı filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiyada Xaltanlı Tağının "Bənzərsən" rədifli vücudnaməsindən bəhs edilir[8]. Qeyd edək ki, bu vücudnamə də, əslində, Koroğlunun adına verilən vücudnamə ilə eyniyyət təşkil edir və tədqiqatçı alim sadəcə qoşmanın məzmunundan danışır, şeir şəkli haqqında nəzəri məlumat vermir. "Xaltanlı Tağı" adlı monoqrafiyasında isə "Bənzərsən" şeiri ilə yanaşı, aşığın "Gəldim" rədifli vücudnaməsini də təhlilə cəlb edən Ağalar Mirzə də Məhərrəm Qasımlı kimi bu termini vəhdəti-vücud fəlsəfəsi ilə əlaqədə izah edir. Maraqlı cəhətdir ki, Ağalar Mirzə aşığın, yəni Xaltanlı Tağının "Gəldim" vücudnaməsini "İnsan poeması" adlandırır.

Vücudnamələri Əhməd Yəsəvi və Yunus Əmrənin şeirləri kontekstində təhlil edən fil.ü.f.d. Xuraman Hümmətova öncələr bu şeir şəklinin sadəcə aşıq poeziyası kontekstində öyrənildiyini qeyd edir.[9] Şeir

---

nəşriyyatı, – 1992, – s. 251

[6] Həkimov, M. Aşıq şeirinin növləri / M. Həkimov – Bakı: ADU nəşriyyatı, – 1987. – 79 s.

[7] Paşayev, S. Nizami və xalq əfsanələri / S.Paşayev – Bakı: Gənclik, – 1983. – s. 15

[8] Mirzə, A. Xaltanlı Tağı (Yaradıcılıq yoluna baxış, şeirlərindən seçmələr) / A.Mirzə – Bakı: Elm, – 1999, – 145 s.

[9] Hümmətova, X. Əhməd Yəsəvi və Yunus Əmrə yaradıcılığında bəzi məqamların təhlili

şəkli ilə bağlı məşhur türk ədəbiyyatşünası Fuad Köprülünün də fikirlərinə istinad edən tədqiqatçı diqqəti vücudnamənin aşıq şeirindəki və yazılı ədəbiyyatdakı inkişaf yolu və əlaqəsinə cəlb edir. İlk dəfə bu məqalədə janrın ilk nümunəsini qələmə alanlardan biri kimi, Əhməd Yəsəvi hikmətlərindən bəhs edən Xuraman Hümmətova Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq janrın təkamülündə bir cəhətə diqqət edir: vücudnamənin aşıq ədəbiyyatına daha sonradan "düşdüyünü" vurğulayır!

"Xəstə Qasımın bir vücudnaməsi haqqında" məqaləsində həcmcə böyük vücudnamə müəlliflərindən biri olan bu aşığın əsərini təhlilə cəlb edən Seyran Qayıbov adlarını çəkdiyimiz müəlliflərin çoxundan fərqli olaraq vücudnamələrlə bağlı Türkiyə ədəbiyyatşünaslığındakı nəzəri fikirlərə də nəzər salır və tədqiqatında istifadə edir. Vücudnamələri həcm baxımından ikiyə ayıran müəllif birincidə dini motivlərin üstün olduğunu qeyd edir[10].

Əli Məmmədbağıroğlu "Şəkili şair Məhərrəmin vücudnaməsi" başlıqlı məqaləsində "Ədəbiyyatşünaslıq terminləri lüğəti"ndə şair Məzlumun adına verilən bu nümunənin, əslində, şəkili müəllifə aid olması ilə bağlı şübhələri aradan qaldırır[11].

Bundan başqa, Ramiz Əskərin "Türkmən müəmmaları, deyişmələri və vücudnamələri" adlı kitabında isə digər bir türk xalqının vücudnamə janrı ilə bağlı nümunələri oxuculara tanıdılmışdır[12].

Azərbaycanda vücudnamələrlə bağlı son dövrlərdə müəyyən kitablar nəşr olunmuşdur. İlk kitablarda vücudnamələr digər şeir şəkilləri ilə birlikdə qruplaşdırılmış və əsərin müəyyən bölümündə yer almışdır. Bunlardan biri "Vücudnamə, saqinamə, tövbənamə" adlı kitabdır. Burada digər müəlliflərdən fərqli olaraq vücudnamə yazılı ədəbiyyatın bir janrı kimi təqdim edilir, hətta müxəmməs, gəraylı və mürəbbe ilə müqayisədə verilir.

Yuxarıda qeyd edilən araşdırmaları Sovet dövrü və müstəqillik

---

// Xoca Əhməd Yəsəvi Simpoziumu, – Bakı: 21-23 noyabr, 2008, – s. 109-119

[10] Qayıbov, S. Xəstə Qasımın bir vücudnaməsi haqqında // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. AMEA Folklor İnstitutunun nəşri, kitab XXX, – Bakı: Nurlan, – 2009. – s. 79-96

[11] Məmmədbağıroğlu, Ə. Şəkili şair Məhərrəmin vücudnaməsi // Sənət dünyası, qəzeti, – 9 aprel 2013, – s. 5

[12] Əskər, R. Türkmən müəmmaları, deyişmələri və vücudnamələri / R.Əskər – Bakı, MBM, – 2011, – 128 s.

dövrünün ədəbiyyatşünaslığında olaraq təsnif etsək, görərik ki, müəyyən mərhələdə alimlər daha çox dini kontekstdə qələmə alınan bu şeirlərin geniş təhlilindən “kənar durmuşlar”. Sovet dövründə ateizm ideologiyası dini məzmunlu bu şeirlərin geniş elmi təhlilinə imkan verməmişdir. Təbii ki, təsəvvüfi kontekstdə araşdırma cəhdi də yalnız son dövrlərin tədqiqatlarında özünü göstərməkdədir. Bu baxımdan prof., f.e.d. Məhərrəm Qasımlının janrla bağlı şərhləri diqqəti cəlb edir. O, vücudnamə məfhumunu vəhdəti-vücud təlimi kontekstində izah edir.

2018-ci ildə isə prof., f.e.d., Məhərrəm Qasımlı və prof., f.e.d. Mahmud Allahmanlının birlikdə nəşr etdirdikləri “Aşıq şeirinin poetik biçimləri və çeşidləri” adlı kitabda da vücudnamə aşıq şeirinin bir şəkli kimi araşdırılmışdır[13]. Vücudnamələrin ustadnamələrlə əlaqəsindən bəhs edilmiş, həmçinin Aşıq Valehin vücudnaməsi bir örnək mətn kimi təqdim olunmuşdur.

Türkiyə ədəbiyyatşünaslığında məsələyə münasibət necədir? Türkiyə ədəbiyyatşünaslığında vücudnamə termininin qarşılığı olaraq yaşnamə terminindən istifadə edilir. Vücudnamə deyildikdə isə insanın yaradılışının təsəvvüfi mahiyyətini şərh edən əsərlər nəzərdə tutulur. Azərbaycan ədəbiyyatşünaslığından fərqli olaraq Türkiyə filoloji fikrində vücudnamə sadəcə aşıq yaradıcılığında insan ömrünü səciyyələndirən bir şeir kimi deyil, vəhdəti-vücud təliminə əsasən yazılmış dini-təsəvvüfi risalələr kimi başa düşülür.

Vücudnamə və onun yaşnamə ilə fərqli cəhətləri məsələsinə Türkiyə ədəbiyyatşünaslığında həmçinin prof. dr. Abdurrahman Güzelin araşdırmalarında rast gəlirik. O, Qayğısız Abdalın “Vücudnamə” əsərini nümunə olaraq verir və tədqiqatçı alim vücudnamələrin ayrıca bir növünü də fərqləndirir. Ona görə, vücudnamə ənənəsi zamanla aşıq yaradıcılığına da keçmiş və el ozanları da həmin məzmuna uyğun əsərlər yazmışlar.

Doğan Kaya Türkiyə ədəbiyyatşünaslığında yaşnamələr haqqında araşdırmaları ilə tanınan və yaşnamələri bir kitab şəklində tərtib edən ilk müəllifdir.

Beləliklə, vücudnamələrin sistemli şəkildə öyrənilməsi ilə bağlı

---

[13] Qasımlı, M. Aşıq şeirinin poetik biçimləri və çeşidləri / M.Qasımlı, M.Allahmanov – Bakı, Elm və təhsil, – 2018. – 220 səh.

Türkiyə ədəbiyyatşünaslığında Amil Çələbioğlu[14] və Doğan Kaya[15] tərəfindən müəyyən işlər görülmüşdür. Onların tədqiqatları tərtibat kitabları və bu kitaba yazdıqları geniş giriş sözü ilə vücudnamələrin tədqiqində mühüm araşdırmalardandır.

Mövzunun tədqiq tarixindən göründüyü kimi, vücudnamə janrı indiyə qədər heç bir dissertasiyanın problemi olmamışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Vücudnamə mətnləri üzərində araşdırma aparmaq, müxtəlif türk xalqlarının nəzərdə tutulan bədii yaradıcılıq nümunələrini öyrənmək, vücudnamələrin arxitektonikasını və məzmun özəlliklərini təhlil etmək dissertasiyanın əsas məqsədini təşkil edir. Bu məqsəddən asılı olaraq tədqiqat işində qarşıya qoyulan vəzifələr aşağıdakılardır:

1. Türk xalqlarının şifahi ədəbi nümunələri arasında vücudnamə mətnlərini üzə çıxarmaq;
2. "Koroğlu" dastanının müxtəlif variantlarında (Azərbaycan, türkmən, özbək, uyğur) rast gəlinən vücudnamə mətnlərini müqayisəli araşdırmaq;
3. Anonim vücudnamələrin özəlliklərini üzə çıxarmaq;
4. Aşıq yaradıcılığında rast gəlinən vücudnamələri tədqiqata cəlb etmək;
5. Türk xalqlarının klassik şeirində vücudnamə mətnlərinin məzmun xüsusiyyətlərini araşdırmaq, onların arasındakı oxşarlıqları müəyyənləşdirmək;
6. Risalə şəklində olan vücudnamə mətnləri üzərində araşdırma aparmaq;
7. Çağdaş dövrdə türk xalqlarının vücudnamə yaradıcılığına nəzər salmaq, SSRİ dövründə vücudnamələrin semantik təkamülündə baş verən dəyişiklikləri izləmək, Cümhuriyyət dövründə Türkiyədə aşıq poeziyasında rast gəlinən vücudnamələrin ideya-məzmun xüsusiyyətlərini təhlil etmək;
8. Modern vücudnamə mətnlərinin məzmun və forma xüsusiyyətlərini təhlil etmək, ənənəvi örnəklərdən fərqli cəhətlərini üzə çıxarmaq;

[14] Çelebioğlu, Â. Türk Edebiyatında Yaşnameler / Â.Çelebioğlu. Eski Türk Edebiyatı Araştırmaları. – İstanbul: MEB.Yay., – 1998, – s. 367-488
[15] Kaya, D. Yaşnameler / D.Kaya– Ankara: Akçağ Yayınları, – 2004, – 424 s.

9. Türk xalqlarının vücudnamə mətnlərinin vəznlərini və janr problemini müəyyənləşdirmək, dövriyyələrin vücudnamələrin ilkin forma arxetipi olmasını aydınlaşdırmaq, digər janrlarla vücudnamələrin əlaqəsini üzə çıxararaq məzmun və forma cəhətdən fərqli cəhətlərini tədqiq etmək;

10. Türk xalqları poeziyasında vücudnamələrin ilkin qaynaqlarını müəyyənləşdirmək, hədislərin, Quran ayələrinin vücudnamə mətnlərindəki rolunu aydınlaşdırmaq, janrın təsəvvüflə əlaqəsini ortaya çıxarmaq və məzmun xüsusiyyətlərini araşdırmaq;

11. Müxtəlif türk xalqlarının vücudnamə mətnləri arasında keçmişdən indiyə qədər vəhdəti təmin edən arxetip, qəlib və formulları üzə çıxarmaq, bunların janr və müəllif paradiqmasında ənənəviliyi formalaşdırdığını vurğulamaq;

12. Vücudnamələrin leksik-üslubi xüsusiyyətlərini araşdırmaq, poetik fiqurları müəyyənləşdirmək, leksik-semantik paralellikləri tədqiq etmək;

13. Vücudnamələrin məzmun qruplarını müəyyənləşdirmək;

14. Türk xalqları poeziyasındakı vücudnamələri sistemli öyrənmək.

**Tədqiqat metodları.** Tədqiqat işində tarixi müqayisəli və müqayisəli-tipoloji metodlardan istifadə edilmişdir. Ədəbiyyatşünaslıq elminin son dövrlərdə aktual olan nəzəri müddəaları əsas götürülmüş, yerli və xarici alimlərin arxitektonika problemi ilə bağlı araşdırmalarından istifadə edilmişdir. Həmçinin arxetip nəzəriyyəsi, formul nəzəriyyəsi kimi müxtəlif ədəbi-nəzəri təhlil metodları ilə vücudnamələrin strukturu öyrənilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin tədqiqat obyekti vücudnamə mətnləridir. Bu məqsədlə Azərbaycan, türk, Kıbrıs türk, türkmən, özbək, qazax, qırğız, başqırd, uyğur, qumuq türklərinin vücudnamə yaradıcılığı ilə bağlı nümunələr toplanılmış, iki cildlik kitab tərtib edilmiş və tədqiqat obyektinə çevrilmişdir.

Müxtəlif türk xalqlarının vücudnamə mətnlərinin müqayisəli təhlili, arxitektonikasının, məzmun xüsusiyyətlərinin, tarixi poetikasının araşdırılması dissertasiyanın predmetini təşkil edir. Bu baxımdan, strukturalist metodla janrın ilk anonim nümunələrindən dastanlarda qəhrəmanın epik bioqrafiyası şəklində mövcud olan mətnlərə,

həmçinin ən çox aşıq yaradıcılığında rast gəlinən nümunələrə, eyni zamanda, yazılı ədəbiyyatda – Yusif xas Hacibin "Qutadqu bilik" və Əhməd Yəsəvinin "Divani-hikmət"ində qələmə alınmış vücudnamələrə, həmçinin risalə şəklində olan vücudnamələrin təsəvvüfi mahiyyətinə diqqət yetirilir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində Azərbaycan, türk, Kıbrıs türk, türkmən, özbək, qazax, qırğız, başqırd, uyğur, qumuq türklərinin vücudnamə yaradıcılığı ilə bağlı nümunələr toplanılmış, iki cildlik kitab tərtib edilmiş və tədqiqat obyektinə çevrilmişdir. Bununla əlaqədar aşağıdakı müddəalar müdafiəyə çıxarılmışdır:

1) Müxtəlif türk xalqlarının vücudnamə mətnlərinin müqayisəli təhlili, arxitektonikasının, məzmun xüsusiyyətlərinin, tarixi poetikasının araşdırılması nəticəsində məlum olmuşdur ki, vücudnamə stabil janr xüsusiyyətlərinə malik deyil.

2) Janrın formasında özünü göstərən qeyri-stabillik məzmun baxımından diaxronik planda insan ömrünün təsviri ilə əlaqədar mətnlər kimi nəzm və nəsr strukturunda müxtəlif poetik örnəklərdə öz əksini tapmışdır.

3) Vücudnamələrin arxitektonikasında məzmun stabilliyi onun bir janr kimi formalaşmasında mühüm rol oynamış, ən qədim dövrlərdən günümüzə qədər müxtəlif türk xalqlarının vücudnamə mətnlərində insan ömrünün illər üzrə təsviri janrın dəyişməyən məzmun səciyyəsində yer almışdır.

4) Şifahi ədəbiyyatda vücudnamələr tapmaca, dastan, qoşma, gəraylı kimi müxtəlif formalarda təzahür etmişdir.

5) "Bilgə kağan" abidəsində qəhrəmanın ömrünün müəyyən illərinin təsviri janr arxitektonikasında türk düşüncəsində yaş fəlsəfəsinin qədim dövrlərdən əhəmiyyət kəsb etdiyinin göstəricisidir.

6) Yazılı ədəbiyyatda Yusif xas Hacibin "Qutadqu bilik" və Əhməd Yəsəvinin "Divani-hikmət" əsərlərində yer alan vücudnamələr janrın arxetip mətnləri olmuşdur.

7) Risalə şəklində olan vücudnamələr janrın təsəvvüfi mahiyyət qazanmasında əhəmiyyətli rol oynamışdır.

8) Aşıq yaradıcılığında vücudnamə janrı əsasən qoşma və gəraylı şəklində təzahür etmiş, Anadolu və Azərbaycan aşıq məktəbləri vücudnamə yaradıcılığında fəal yer almışlar.

9) Vücudnamə yaradıcılığına tarixi proseslər böyük təsir göstərmiş, SSRİ dövründə Azərbaycanda vücudnamə yaradıcılığı zəifləmişdir.

10) Müasir dövrdə vücudnamə mətnləri yubiley şeirləri üçün alt mətn mahiyyəti qazanmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya Azərbaycan ədəbiyyatşünaslığında türk xalqlarının vücudnamə mətnlərinin müqayisəli təhlilinə həsr olunmuş ilk sistemli tədqiqat işidir. Azərbaycan folklorşünaslığında ümumtürk poeziyasında vücudnamələrin formalaşması, təkamülü və poetikasından bəhs edən ilk tədqiqat əsəri olan bu dissertasiyanın elmi yeniliklərini aşağıdakı şəkildə xülasə etmək mümkündür:

- İlk dəfə olaraq 200-dən çox vücudnamə mətni üzərində təhlil aparılaraq fərqli və oxşar cəhətləri üzə çıxarılmışdır;
- İlk dəfə olaraq klassik ədəbiyyatda vücudnamə anlayışından bəhs olunmuş, mənsur vücudnamələr haqqında məlumat verilməklə yanaşı, vəhdəti-vücud nəzəriyyəsi ilə əlaqədə təhlilə cəlb edilmişdir;
- Dissertasiyada ümumtürk poeziyasında müxtəlif vücudnamələrin variantları müəyyən edilmiş, qaynaq mətnlər dəqiqləşdirilmişdir;
- Tədqiqat işində “Koroğlu”, “Manas”, “Edigey”, “Kococaş” kimi dastan mətnlərindəki vücudnamələr öyrənilmişdir;
- Türk xalqlarının aşıq yaradıcılığında vücudnamələr sistemli şəkildə öyənilmiş, fərqli və oxşar cəhətlər üzə çıxarılmışdır;
- Sovet dövrü vücudnamə yaradıcılığının spesifik məzmun xüsusiyyətləri təhlil edilmiş, Azərbaycan, türkmən, qaraqalpaq vücudnamə mətnləri əsasında sosrealizm ideologiyasının bu janra təsiri açıqlanmışdır;
- Cümhuriyyət dövrü türk vücudnamə yaradıcılığı sistemli şəkildə araşdırılmışdır;
- Modern vücudnamələr ilk dəfə olaraq tədqiqata cəlb edilmiş, məzmun və forma xüsusiyyətləri izah edilmişdir;
- İndiyə qədər Azərbaycan ədəbiyyatşünaslığında sadəcə heca vəznində mövcudluğu qəbul edilən vücudnamələrin digər vəznlərdəki

nümunələri də araşdırılmışdır.

- İndiyə qədər yalnız qoşmalarla əlaqədə izah edilən vücudnamələrin digər janrlarla bağlılığı, formaca dəyişkənliyi üzə çıxarılmışdır;
- Vücudnamələr dövriyyə və vəhdəti-vücud nəzəriyyələri ilə əlaqədə izah edilmişdir;
- Vücudnamələrin əsas qaynaqları üzə çıxarılmış, Quran və hədislərin bu janrın məzmun çalarlarında rolu qeyd edilmişdir;
- Vücudnamələr ilk dəfə olaraq arxetip nəzəriyyəsi baxımından şərh edilmiş, böyük ana, ata, müdrik adam, sonsuz yolçuluq, kölgə və s. arxetiplərin vücudnamə mətnlərindəki yeri müəyyənləşdirilmişdir;
- Ümumtürk poeziyası əsasında vücudnamələrin ənənəvi formul və qəlibləri üzə çıxarılmışdır;
- Vücudnamələrin poetik sistemi tədqiq edilmiş, bədiiliyi şərtləndirən leksik-semantik özəllikləri araşdırılmışdır.
- İlk dəfə olaraq Azərbaycan ədəbiyyatşünaslığında bir janrın arxitektonikası məsələsi tədqiqat işinin predmetinə çevrilmişdir.

Bütövlükdə, dissertasiyada ilk dəfə olaraq yalnız Azərbaycan türklərinin deyil, digər türk xalqlarının da vücudnamə yaradıcılığı sistemli şəkildə, arxitektonik özəllikləriylə öyrənilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işində ədəbiyyat nəzəriyyəsinin bir çox məsələlərinə, o cümlədən arxitektonika probleminə yer verilir. Janr, vəzn və üslub məsələləri ilə bağlı müxtəlif nəzəri problemlərin araşdırıldığı dissertasiyanın nəticələrindən türkoloji araşdırmalarda, müqayisəli ədəbiyyatşünaslıqla bağlı tədqiqatların aparılmasında yararlanmaq mümkündür.

Dissertasiyanın nəzəri əhəmiyyəti qədər praktik önəmi də var. Praktik olaraq tədqiqat işinin nəticələrindən aşağıdakı məsələlərin həllində istifadə etmək mümkündür:

- türk xalqları ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi və folklorşünaslıqla bağlı aparılacaq tədqiqat işlərində;
- ali məktəblər üçün müvafiq dərsliklərin hazırlanmasında;
- mühazirə mətnlərinin hazırlanmasında;
- türk xalqlarının ədəbiyyatının janrlar üzrə öyrənilməsində;
- semiotik araşdırmalarda;

- türk xalqlarının aşıq yaradıcılığı nümunələrinin öyrənilməsində;

- genealoji və tipoloji istiqamətdə ədəbi əlaqələrin müəyyənləşdirilməsində;

- folklorla yazılı ədəbiyyatın qarşılıqlı əlaqəsinin öyrənilməsində;

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın mövzusu AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Elmi Şurasında və Problem Şurasında təsdiq olunmuşdur.

Tədqiqatın məzmunu, başlıca nəticələri müəllifin beynəlxalq və respublika səviyyəli elmi konfranslarda etdiyi məruzələrdə, kitablarda ("Türk xalqları ədəbiyyatında vücudnamələr", I cild. Bakı, "Elm və təhsil", 2015, 224 səh.; "Türk xalqları ədəbiyyatında vücudnamələr", II cild. Bakı, "Elm və təhsil", 2018, 316 səh.; Vücudnamələrdə mətnlərarası əlaqə, Bakı, "Elm və təhsil", 2018, 256 səh.; "Devriye, yaşname, elifname", Almaniya, Saarbrücken: Türkiyə Alim Kitabları Nəşriyyatı, 2016, 112 səh.), Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda, o cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə sisteminə daxil olan (Web of Science, Copernicus, Ulakbim və s.) dövrü elmi nəşrlərdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Türk filologiyası" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, dörd fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir. Dissertasiyanın "Giriş" hissəsi 15 səhifə (25115 işarə), I fəsil 34 səhifə (43229 işarə), II fəsil 74 səhifə (107440 işarə), III fəsil 88 səhifə (121196 işarə), IV fəsil 62 səhifə (94904 işarə), Nəticə 6 səhifə (10880 işarə) həcmindədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 402787 işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, tədqiqatın obyekti, predmeti, məqsədi, vəzifələri, elmi yeniliyi, nəzəri-metodoloji əsasları, praktiki əhəmiyyəti, aprobasiyası və quruluşu barədə məlumat verilir.

Dissertasiyanın birinci fəsli **"Vücudnamələrin arxitektonikası"** adlanır və iki paraqrafdan ibarətdir. Birinci paraqrafda **"Ədəbiyyatşünaslıqda arxitektonika problemi"**ndən bəhs olunur. Arxitektonika incəsənətin müxtəlif sahələrində olduğu kimi, ədəbiyyatşünaslıqda da istifadə edilən bir termindir və bədii mətnin strukturu ilə bağlı məsələləri əhatə edir. Arxitektonika mətni tam şəkildə və hissələri ilə qurmaq və dərk etməkdir.

Arxitektonika anlayışı, əsasən, memarlıqda istifadə edilən bir istilahdır. Termin yunanca iki sözün ("arkhi" və "tektos)" birləşməsindən (ἀρχιτεκτονική) yaranmışdır və ilkin mənası "tikinti sənəti" deməkdir. Arxitektonika mətni hissələrlə və bütöv şəkildə dərk etmək üçün istifadə olunan əsas vasitədir. Arxitektonika deyildikdə bədii əsərin qurulması və ya bütövü qurmaq üçün onun hissələrinin bir-biri ilə əlaqələndirilməsi nəzərdə tutulur. Antik dövrdə bu termindən Aristotel geniş şəkildə istifadə etmişdir. Aristotel "arxitektonika" dedikdə, bunu "bədii tamın nizamlı qurulma vasitəsi" kimi müəyyənləşdirir. Eyni zamanda, "tam və onun hissələri" arasındakı nisbətin harmoniyası kimi qəbul edir. *A.F.Losevə görə, əslində, Aristotel "arxitektonika" dedikdə ədəbiyyatda deyil, incəsənətin digər sahələrində, eləcə də fəlsəfə və məntiqdə olan "tikmək, quraşdırmaq, vahidi formalaşdırmaq" kimi məna paralellərini nəzərdə tutmuşdur. Bu mənada yazıçı və filosofları "düşüncə arxitektorları" adlandırmaq mümkündür*[16].

XX əsrdə arxitektonika problemi bir çox araşdırmaların mövzusuna çevrilir. 1928-ci ildə L.Valçel "Şekspirin dramının arxitektonikası" adlı araşdırmasında bədii əsərin yaradıcılıq prosesi kimi mahiyyətini arxitektonika anlayışı ilə əlaqədə izah edir. XX əsrin əvvəllərində bu termin "məzmun və forma vəhdəti"nin sinonimi kimi

---

[16] Лосев, А. Ф. История античной эстетики. Аристотель и поздняя классика / А. Ф. Лосев– Москва: Издательство АСТ, – 2000. – с. 637

də qəbul edilir. Rus ədəbiyyatşünaslığında *P. Florenski arxitektonika termininin əvəzinə "konstruksiya" məfhumunu işlətməyi məqsədəuyğun sayır*[17].

Dissertasiyanın **"Azərbaycan filologiyasında problemə münasibət"** adlı bəndində Azərbaycan filologiyasında bu anlayışla bağlı fikirlərə akademik Azadə Rüstəmova, fil.e.d., prof. Elçin Əfəndiyev, fil.e.d., dos. Cavanşir Yusifli, fil.e.d., prof. Kamil Vəli Nərimanoğlu, fil.e.d., prof. Seyfəddin Rzasoy, fil.e.d., prof. Sərxan Abdullayev, fil.e.d., prof. Şəmsizadə Nizaməddin, fil.e.d., dos. Vahid Adil Zahidoğlu, fil.ü.f.d., dos. Səadət Şıxıyeva və digər müəlliflərin elmi məqalə və araşdırmalarında rast gəlinir. Məsələn, Kamil Vəli Nərimanoğlunun izahında arxitektonika ilk quruluş kimi öz şərhini tapır: *"Hər hansı bir türk folklor təhkiyəsinin arxitektonika olaraq adlandırılan ilk strukturunun müəyyənləşməsində səslənmə mühüm əhəmiyyət daşıyır*".[18] İlk quruluş və ya ilk plan (arxetip) deyildikdə, təbii ki, burada yaradıcılıq prosesi nəzərdə tutulur. Arxitektonika və onunla əlaqədar digər məsələlər (kompozisiya, süjet xətti və s.) əsərin məzmun və forma vəhdətində aparıcıdır.

Ümumilikdə, şifahi xalq ədəbiyyatı kontekstində arxitektonika daha çox mövcud mətnlərin strukturunun bərpasında istifadə edilən bir termin kimi başa düşülür. Seyfəddin Rzasoyun "Mifologiya və folklor: nəzəri-metodoloji kontekst" adlı tədqiqat işində *"mental arxitektonika"* ifadəsindən, məhz bu kontekstdə istifadə edilir.[19] "Kitabi-Dədə Qorqud"un nüsxələrindəki katib əlavələri və düzəlişlərindən bəhs edən və "ilkin quruluşu"n bərpasını araşdıran Vahid Zahidoğlu bunu, məhz *"arxitektonik quruluş"* kimi səciyyələndirir.[20]

Nizaməddin Şəmsizadənin "Ədəbiyyat nəzəriyyəsi" kitabının "Bədii əsərin arxitektonikası" adlı fəslində arxitektonika bir nəzəri problem olaraq qoyulur. Burada tədqiqatçı məzmun və forma, kom-

---

[17] Флоренский, П. Иконостас. Избранные труды по икусству / П. Флоренский – Мифрил, Русская книга, – 1993, – с. 36

[18] Nerimanoğlu, K.V. Türk Languafolkloristiği Üzerine Düşünceler // Turkish Studies International Periodical for the Languages, Literature and History of Turkish or Turkic Volume 10/12 Summer, – 2015, – s. 895

[19] Rzasoy, S. Mifologiya və folklor: nəzəri-metodoloji kontekst / S.Rzasoy – Bakı: Nurlan, – 2008. – s. 49

[20] Zahidoglu, V.A.. Dede Korkut Kitabı'nda Tipik Bir İstinsah Hatası Üzerine // Türk Dünyası İncelemeleri Dergisi, 15/2 Kış, – 2017, – s. 159-170

pozisiya və onun tərkib hissəsi, bədii obraz, xarakter, tip kimi məsələlərdən bəhs edir.[21]

Sərxan Abdullayevin tədqiqatlarında arxitektonika terminindən bədii əsərin poetik sistemini anlatmaq üçün istifadə edilir.[22] Tədqiqatçıya görə, bədii əsərin arxitektonikası onun bütün struktur elementləri ilə bağlıdır.

Fəxrəddin Veysəllinin tədqiqatlarında isə arxitektonika problemi ölçü anlayışı ilə əlaqədə izah edilir.[23] Əslində, Sərxan Abdullayevin tədqiqatlarında olduğu kimi, Fəxrəddin Veysəllinin də məqalələrində arxitektonika bədii əsərin quruluşu kontekstində araşdırılır. Fonemdən əsərin süjet xəttinə qədər müxtəlif linqvopoetik məqamlarda arxitektonika probleminə müraciət edilir.

**"Arxitektonika və kompozisiya problemi"** adlanan bənddə xüsusilə Elçin Əfəndiyevin məqalələrində problemin qoyuluşundan bəhs edilir. Elçinə görə, *"arxitektonika bədii əsərin zahiri formasıdır, kompozisiya isə mətnin bu forma daxilində yerləşdirilməsidir"*.[24] Bəzi tədqiqatçılar tərəfindən kompozisiyanın iki forması fərqləndirilir: xarici kompozisiya və daxili kompozisiya. Bu kontekstdə arxitektonika mətnin, məhz xarici kompozisiyası kimi dəyərləndirilir. Arxitektonika deyildikdə başlıqlar, altbaşlıq, paraqraf, fəsil və s. hissələr arasında əlaqə başa düşülür. Bu kontekstdə arxitektonika sırf quruluş // struktur kimi nəzərdə tutulur. Mətnin arxitektonikası müəllif düşüncəsinin proporsional şəkildə bölüşdürülməsidir. Xarici kompozisiya deyildikdə, arxitektonika başa düşülürsə, daxili kompozisiyanın da elementləri müəyyənləşdirilməlidir.

Elmi-nəzəri fikrə baxdıqda arxitektonika, tektonika və kompozisiya terminlərinin mənalarının bəzən qarışdırıldığını, birinin səciyyəvi xüsusiyyətinin digərinə yükləndiyini görürük.

**"Vücudnamələrin arxitektonik quruluşu"** adlı paraqrafda konkret vücudnamə mətnləri üzrə təhlillər aparılır. Şifahi xalq ədəbiyyatının anonim örnəklərindən başlayaraq, aşıq yaradıcılığına

---

[21] Şəmsizadə, N. Ədəbiyyat nəzəriyyəsi (Dərslik) / N.Şəmsizadə – Bakı: Proqress nəşriyyatı, – 2012. – s. 92

[22] Abdullayev, S. Dil və bədii qavrayış / S. Abdullayev – Bakı: Yazıçı, – 1984. – s. 72

[23] Veysəlli, F. Seçilmiş əsərlər / F.Veysəlli [3 cilddə] 3-cü cild. – Bakı: Mütərcim, – 2016. – s. 361

[24] Elçin. Tənqid və nəsr: [Elektron resurs] Azərbaycan bədii nəsri ədəbi tənqiddə: 1945-1965. – Bakı: Günəş, – 1999 URL:http://rc32.ucoz.ru/publ/f_ndiyev_elcin_yaradiciligi_t_nqid_v_n_sr_6/1-1-0-742

qədər müxtəlif ədəbi mətnlərdə insan ömrünün illəri yaşlar üzrə təsvir edilir. Ümumilikdə, bədii söz yaradıcılığı ilə bağlı araşdırmalarda şifahi ədəbi nümunələrin yazılı örnəklərdən tarixən daha qədim olduğu birmənalı şəkildə qeyd edilir. Vücudnamələr üçün də bu tezisi irəli sürmək mümkündür. Janrın genesizində türk xalqlarının ömür fəlsəfəsinə və yaşlara münasibəti ilə bağlı şifahi şəkildə dilə gətirdiyi söz və ifadələr ilkin sırada yer alır.

Vücudnamələrin arxitektonikası deyildikdə yuxarıda qeyd etdiyimiz kimi, onların strukturunu təşkil edən elementlər nəzərdə tutulur. Struktur ifadəsi kimi burada sadəcə hər hansı bir vücudnamə mətninin səs və söz cildi deyil, məzmun və formaya aid bütöv quruluşu nəzərdə tutulur. Vücudnamə janrının arxitektonikası iki mənada başa düşülə bilinər:

1. Ümümtürk ədəbiyyatından topladığımız vücudnamə mətnlərinin arxitektonikası
2. Hər bir vücudnamə mətninin arxitektonikası

Bu cür qruplaşdırmanı verməkdə məqsədimiz janrın inkişaf tarixində arxitektonik dəyişikləri izləmək və üzə çıxarmaq üçündür. Çünki bir mətn əsasında bunu müəyyənləşdirmək mümkün deyil. Janrın arxitektonik təhlilini vermək üçün diaxron planda bütün mətnləri gözdən keçirmək, məzmun və forma cəhətdən baş verən dəyişiklikləri izləmək lazımdır. Şifahi nümunələrdən yazılı mətnlərə kimi vücudnamə yaradıcılığında məzmun sadiqliyi insan ömrünə əsaslansa da, forma rəngarəngliyi müşahidə edilir. Bu çeşidlilik isə janrın arxitektonikasının forma cəhətdən sabit olmadığının, müxtəlif dəyişikliklərdən keçdiyinin isbatıdır. Buna nümunə olaraq müxtəlif vəzn və şeir şəkillərində insan ömrünün öz ifadəsini tapdığını göstərə bilərik. Məsələn, arxaik mərhələdə türkün yaşa münasibəti məcazlarla özünü göstərir. Metaforalar vasitəsilə insan ömrünün müəyyən yaşlarını heyvan adlarına köçürmək türk xalqlarının ilkin poetik nümunələri üçün səciyyəvidir. Bu vücudnamə mətnlərini müqayisə elədikdə arxitektonikasında bir çox paralelliklər ortaya çıxır.

**"Vücudnamələrin fonopoetikası"** adlanan bənddə bədii mətnin strukturunda mühüm əhəmiyyət kəsb edən fonoloji vasitələr təhlilə cəlb edilir. Asif Hacılı tərəfindən bu tip vasitələr *"ilkin struktur vahidləri"* adlandırılır[25]. Vücudnamə janrının forma müxtəlifliyi (beyt, qoşma, gəraylı, müxəmməs, sərbəst şeir və s.) mövcud olduğu üçün universal olaraq ritm, qafiyə, vurğu kimi məsələlərdən bəhs etmək mümkün deyil. Vücudnamə ölçüsünə görə müxtəlif tip şeirlərdən

[25] Hacılı, A. Bayatı poetikası / A.Hacılı – Bakı: Elm, – 2000. – s. 15

quruldduğu üçün heca vəznində yazılmış örnəklərin misradaxili bölgüləri müxtəlifdir. Nəzərə alsaq ki, əruz vəznində və sərbəst şeirlə yazılmış vücudnamələr də mövcuddur, bu zaman müxtəlif linqvo-poetik səviyyələrdə çeşidliliyin olduğunu vurğulamalıyıq.

Fonopoetik məsələlər deyildikdə, ölçü, qafiyə, səs təkrarları kimi bədii üslubun imkanlarından bəhs edilir. Anonim vücudnamələr ilkin nümunələrdir və heca vəznindədir. Poetik ritm ölçülərlə şərtlənir. Aşağıdakı tapmaca vücudnamənin ilk iki misrası 2+2, digər misraları isə 3+2 ölçüsündədir:

*Beşte // toklu,*
*Onda // kuzu,*
*Yirmide // aslan,*
*Otuzda // kaplan*[26]*...*

Dastan mətnlərindəki vücudnamələrdə də ölçü müxtəlifliyi diqqəti cəlb edir. Çünki arxaik və aşıq yaradıcılığına məxsus dastanlar arasında ölçü baxımından eyniyyət yoxdur. Aşıq yaradıcılığına məxsus vücudnamələr isə qoşma və gəraylı şəklindədir. Həmin vücudnamələrin ölçüləri də stabil deyil.

Bədii mətnin arxitektonikasında mühüm elementlərdən biri də qafiyədir. Əslində nəzm mətnini nəsrdən ayıran bu element şeiriyyəti gücləndirir və mətndə səslərin müəyyən ahəngini və düzümünü yaradır.

Təbii ki, mətn və müəllif kontekstində fərdi üslub və deyim tərzi xüsusi rol oynayır və qafiyənin də bu baxımdan müxtəlif çeşidləri ortaya çıxır. Bütün müəlliflər sərrast şəkildə söz seçə bilib bu ahəngi yarada bilmədikləri üçün qafiyə nisbi və dəqiq, tam və yarımçıq, sadə və mürəkkəb qafiyələr şəklində qurulur. Aşağıdakı nümunə nisbi qafiyədir, çünki ikinci və dördüncü misrada qafiyə yaradan sözlər arasında nisbi uyğunluq var:

*Əsli bəni-adəmin vəsmin söyləyim,*
*Ata vücudundan gəldim anaya.*
*Ana bətnində qan oldum durdum,*
*Anam həmlə oldu, qaldım vədaya*[27].

[26] Çelebioğlu, Â., Öksüz Y. Z. Türk Bilmeceler Hazinesi / Â.Çelebioğlu – İstanbul: Ülker Yayınları, – 1979, – 139 s.

[27] Fikrətqızı, E. Türk xalqları ədəbiyyatında vücudnamələr: [2 cilddə] / E. Fikrətqızı.– Bakı: Elm, – c. 1. 2015. – s. 47

**Yarımçıq qafiyə:**
*Yetmişdə işim* ***gethaget oldu,***
*Oğul dönük düşdü,* ***gəlin bəd oldu,***
*Qohum-qardaş hamı mən****dən yad oldu****,*
*Qaldım valehlərə haqqı Rzayə*[28].

**Tam qafiyə:**
*İki yaşda yavaş durdum* ***ayağa****,*
*Qaçardım gələndə ata q****abağa****,*
*Çox dedilər mənə nəzir s****adağa****,*
*Allah, ucalt bu balanın başını.*[29]

***Mürəkkəb qafiyə:***
*On tokuzda yitmiş* ***makam zahir oldu****,*
*Zikrin aytıp iç ü* ***taşım tahir boldı****,*
*Nere varsam Hızır* ***Babam hazır boldı****,*
*Ğavsü'l-ğıyas mey içürdi toydum muna.*[30]

Vücudnamələrin arxitektonikasında səs və söz təkrarları da poetik ritmi yaradan əsas vasitələrdəndir. Xüsusilə şifahi xalq ədəbiyyatı örnəkləri içərisində səs təkrarları ilə qurulan bu cür ritmik vücudnamələrə rast gəlirik:

*İyirmi idim – igid idim,*
*Otuz idim – topuz idim.*
*Qırx idim – qırıq idim,*
*Əlli idim – bəlli idim,*
*Altmış idim – batmış idim.*
*Yetmiş idim – bitmiş idim,*
*Səksən idim – sərsəm idim.*[31]

Verilən nümunədə "idim" hissəciyinin təkrarından başqa, saylarla sifətlərin də səs tərkibi etibarilə uyğunlaşdırılması mətndə poetik

---

28 Yenə orada, s. 49-50

29 Fikrətqızı, E. Türk xalqları ədəbiyyatında vücudnamələr: [2 cilddə] / E. Fikrətqızı.– Bakı: Elm, – c. 1. 2015. – s. 53

30 Yesevi, A. Hikmetler. Hazırlayan: İbrahim Hakkulov, Çeviren ve Sadeleştiren: Erhan Sezai Toplu. – Ankara: Milli Eğitim Basımevi, – 1998. – s. 63

31 Fikrətqızı, E. Türk xalqları ədəbiyyatında vücudnamələr: [2 cilddə] / E. Fikrətqızı.– Bakı: Elm, – c. 1. 2015. s. – 34

ritmə xidmət edir. Birinci misrada "i", ikinci misrada "o", üçüncü misrada "ə", dördüncü misrada "ı", beşinci misrada "a", altıncı misrada "i", yeddinci misrada isə "ə" saitlərinin, eyni zamanda müvafiq olaraq "y", "t", "q", "l", "t", "t", "m", "s" samitlərinin sözlərin düzümündə ahəngdar şəkildə yer alması bu kiçik mətnin fonopoetik qatına xüsusi bir ritm əlavə edir.

Beləliklə, insanın ömür yolunun poetik ifadəsinə çevrilən vücudnamələr bütün səviyyələrdə obrazlılığı ilə diqqəti cəlb edir. Vücudnamələrdə bədiiliyin fonopoetik qatında alliterasiya və assonanslar da diqqəti cəlb edir. Yazılı ədəbiyyatda ilkin örnəklərdən olan Əhməd Yəsəvinin vücudnaməsində səs təkrarları diqqəti xüsusilə cəlb edir:

***K**ul Hace Ahmed **k**ır**k**ğa **k**irdin**g** nefsin**g**i **k**ır**k***[32]

Bu nümunədə k, g samit və i, ı saitləri vasitəsilə fonetik obrazlılıq yaradılır. Ümumyyətlə, Əhməd Yəsəvi yaradıcılığında bədii üslubun fonetik qatı daha çox diqqəti cəlb edir. Birinci fəslin **"Leksik-semantik paralellər"** adlanan bəndində isə müxtəlif həcmli vücudnamələr arasında məzmun və forma baxımından müxtəlif paralelliklərdən bəhs edilir. Təbii ki, vücudnamələrdə təzahür edən semantik paralellik ilk növbədə özünü "tarix"də (gün, ay, il) göstərir. Bu qrupa eyni zamanda "ruhlar aləmi" ilə "axirət dünyası"nı da əlavə edə bilərik. Fövqəlzaman kontekstində son iki paralel ayrı-ayrı dillərdə qələmə alınmış bir çox vücudnamələr üçün xarakteristikdir. Əslində vücudnamələrdə fəlsəfi baxımdan üç zaman verilir: keçmiş (ruhlar aləmi), indi (bu dünya) və gələcək  (o biri dünya). Bu zaman və zamansızlıq məfhumu məkan və məkansızlıq ilə paralellik təşkil edir. Ümumiyyətlə, semantika həm məntiqin, fəlsəfənin, həm də dilçiliyin sahələrindəndir və vücudnamələri də bu baxımdan təhlil etmək mümkündür. Fəlsəfi baxımdan yanaşdıqda semantik paralel olaraq, vücudnamələrdə məkan və zaman kateqoriyaları diqqəti cəlb edir. Müxtəlif türk xalqlarının vücudnamə yaradıcılığında həm müəyyən, həm də qeyri-müəyyən miqdar sayları ilə ifadə olunan zaman məfhumları ilə qarşılaşırıq. Təbii ki, semantik baxımdan müəyyən və konkret bir vaxtın, daha doğrusu yaşın ifadəçisi olan müəyyən miqdar sayları maddi dünyada insan ömrünün gün, ay və ya illərini bildirir.

---

[32] Fikrətqızı, E. Türk xalqları ədəbiyyatında vücudnamələr: [2 cilddə] / E. Fikrətqızı.– Bakı: Elm və təhsil, – c. 2. – 2018. – s. 57

Qeyd edək ki, bəzi dilçilər tərəfindən sayların bu semantik paralelliyi cisim (varlıq), məkan, zaman və kəmiyyət adlarının semantik sistemi başlığı altında təsnif edilmiş və bu kontekstdə paralellər vurğulanmışdır.

Cəfərov *yaş və cins bildirən sözləri canlı varlıqlara mənsubiyyətindən asılı olaraq iki böyük qrupa bölür: insan adları və heyvan adları. İnsan adlarını isə 1) qohumluq terminləri 2) yaş-cins evfemizmləri 3) yaş-cins adları* olaraq təsnif edir[33]. Bu kontekstdə vücudnamələrdə yaş-cins bildirən adlar bir semantik sistem kimi əhəmiyyət kəsb edir. Ümumiyyətlə, bu sistemə aid olan "çağa", "körpə", "oğlan", "qız", "yeniyetmə", "gənc", "cavan", "dəliqanlı", "ərgən", "təzə bəy/gəlin", "ana", "ata", "kişi", "qadın/arvad", "baba", "nənə", "qoca", "qarı", "ağsaqqal", "ağbirçək" və s. kimi sözlər yaşlar və cinslər üzrə dəyişən semantik mənanı ifadə etməkdədir. Bu cins kateqoriyasından bir çoxu cütlük yaradır: qız-oğlan, kişi-qadın, qoca-qarı və s. Vücudnamələr bu kateqoriyalar üzrə araşdırmaya cəlb edildikdə bir ümumi cəhəti qeyd etmək istərdik ki, həmin şeirlərin bəziləri, ümumiyyətlə, insan övladının, bəziləri qadın, bəziləri isə kişi cinsinin ömür yolunu əks etdirir.

Vücudnamələrdə yaşlar üzrə paralellər həm hər bir vücudnamədə semantik ardıcıllıqla verilir, həm də ayrı-ayrı mətnlərin müqayisəsi zamanı hər yaş qrupunun səciyyəvi xüsusiyyətləri ilə bağlı paralellər müşahidə olunur. Daha doğrusu, ümumilikdə vücudnamələr forma baxımından fərqli olmasına baxmayaraq, məzmunca bir-biri ilə səsləşməkdə və uşaqlıq, gənclik və qocalıq dövrlərinin bənzətmə və müqayisələri çox zaman bir-birini tamamlamaqdadır. Belə ki, diqqətlə nəzər saldıqda vücudnamələrin başlanğıcında, ortasında və sonunda müxtəlif semantik bənzərliklərin olduğu üzə çıxır. Bu isə onunla bağlıdır ki, vücudnamələrdə bir qayda olaraq, dini motivlər əsasında, ümumiyyətlə, insan övladının yaranması, bu dünyaya gəlişi və yaşayışı, eləcə də, ömrünün son günləri, canını Əzrayıla təslim etməsi və axirət dünyası təsvir edilir. Məhz bu təsvirlərdə istifadə edilən obrazlar və məcazlar sisteminin semantik paralelliyi diqqəti cəlb edir. Hətta bu qəliblərdən bəziləri ümumxalq danışıq dilində də istifadə edilir.

---

[33] Cəfərov, Q. Azərbaycan dilinin leksik-semantik sistemi / Q. Cəfərov – Bakı: Elm, – 1984. – s. 32

Bunlardan ən birincisi, təbii ki, uzun bir ömrün iki günə bənzədilməsidir:

*Eli boş geldim, eli boş gittim,*
*İki günlük ömür için dünyaya.*[34]

Vücudnamələrdə, təbii ki, xüsusilə də giriş və sonluq hissələrində bədən üzvlərinin adları da tez-tez çəkiliir. "*Bədən üzvləri adları arasında fonomorfoloji ümumilikdən savayı, semantik bağlılıq da vardır. Bu həmin sözlərin bir-biri ilə semantik əlaqələrə girməsində özünü göstərir".*[35] Vücudnamələrdə daha çox ana bətni, ana qarnı və ya ana rəhmi, damar, sümük, barmaq, əl-ayaq sözləri və bunların ümumiləşdirici sözü kimi – bədən sözündən istifadə olunur.

Qüdrət Cəfərovun tədqiqatında feillərin də semantik sistemi araşdırmaya cəlb edilmişdir. Həmin sistemdə vücudnamələrin məzmunu ilə uyğun gələn yaş və boy dəyişikliyi ilə bağlı olan feillər qrupu diqqətimizi cəlb edir. "Böyümək", "gəncləşmək", "kişiləşmək", "qocalmaq", "qarımaq" kimi bu sistemə aid sözlər ayrı-ayrı vücudnamələrdə bir ömrün əvvəlindən sonuna qədərki təsvirlərdə tez-tez verilir.

Bununla da, türk xalqlarının vücudnamə yaradıcılığında leksik-semantik paralellər janrın arxitektonikasında semiotik universallar vasitəsilə məzmun birliyi yaradır.

**"Vücudnamələrin məzmun özəllikləri"** adlı ikinci fəsil beş paraqrafdan ibarətdir. Burada "Zoomorfik vücudnamələr", "Təsəvvüfi vücudnamələr", "Qız və qadınlar haqqında vücudnamələr", "Tərcümeyi-hal səciyyəsi daşıyan vücudnamələr", "Tarixi hadisələri əks etdirən vücudnamələr" kimi paraqraflar yer alır. Vücudnamələrin arxitektonikasında məzmun qəlibləri forma qəliblərinə görə daha stabildir. Əslində bütün vücudnamə mətnləri üçün eyni məzmun özəlliyi səciyyəvidir: insan ömrü.

Şifahi və yazılı ədəbiyyatda müxtəlif vəzn və formalı vücudnamələrin hər birində insan ömründən bəhs edilir. Lakin ayrı-ayrı vəznlərdə, klassik ədəbiyyatda və aşıq şeirində vücudnamə yeni məzmun çalarları qazanır, bəzi müəlliflər bütün insan ömründən, bəzi müəlliflər onun müxtəlif illərindən, bəziləri ayrı-ayrı mərhələlərindən bəhs

---

[34] Kaya, D. Yaşnameler / D.Kaya– Ankara: Akçağ Yayınları, – 2004, – s. 360
[35] Cəfərov, Q. Azərbaycan dilinin leksik-semantik sistemi / Q. Cəfərov – Bakı: Elm, – 1984. – s. 53

edirlər. Vücudnamənin arxitektonik məzmun qatlarındakı dəyişikliklər ayrı-ayrı tədqiqatçıların da diqqətini cəlb etmiş, bu kontekstdə müxtəlif təsnifatlar aparmışlar. Türkiyəli alimlər Amil Çələbioğlu və Doğan Kaya topladıqları vücudnamə mətnlərini məzmun baxımından qruplaşdırmışlar.

Azərbaycan ədəbiyyatşünaslığında isə vücudnamələr xüsusi tədqiqat obyektinə çevrilmədiyindən, bu şeir şəklinin məzmun baxımından təsnifatı da verilməmişdir. Fikrimizcə, vücudnamələrin məzmun özəlliklərində aşağıdakı qruplaşdırmanı edə bilərik: Zoomorfizm; Təsəvvüf; Qız-qadınların vəsfi; Tərcümeyi-halın əksi; Tarixi hadisələrin əksi

**"Zoomorfik vücudnamələr"** adlı paraqrafda şifahi xalq ədəbiyyatı nümunələrində heyvan simvolizminin əks olunması hadisəsi araşdırılır. Vücudnamələrdə zoomorfik simvolizmə daha çox anonim vücudnamələrdə rast gəlinir. Anonim vücudnamələr deyildikdə, müxtəlif türk xalqlarının kollektiv bədii yaradıcılıq məhsulu olan bədii nümunələr nəzərdə tutulur. Anonim vücudnamələrdə ümumxalq təfəkkürünün insan həyatının mərhələləri ilə bağlı məqamları əks olunur.

Müxtəlif heyvanlarla zaman məfhumunun qarşılaşdırılması və onlardan bir zaman vahidi kimi istifadə olunmasının kökü və tarixi qədimdir. Müəyyən vücudnamələrdə insan ömrünün il və illərinin zoomorfik vahidlərlə ölçülməsi 12 illik təqvim sistemi ilə semantik paralelliklər yaradır. Ümumiyyətlə, müəyyən heyvanlar türklərin həyat və məişətində xüsusi əhəmiyyət kəsb edib. *"Türklər on iki növ heyvanın adını on iki ilə ad olaraq vermişlər; uşaqların yaşlarını, savaş tarixlərini və bir çox başqa şeyləri həmişə bu illərin dövr etməsi ilə hesablamışlar".*[36] Qeyd edək ki, bəzi vücudnamələr arasında da doğum tarixi olaraq heyvan təqvim ilinin verilməsinə də rast gəlinir. Vücudnamələrdə də heyvan simvolizmindən xronometrik ölçü kimi istifadə edilir. Türkmən anonim vücudnaməsində ömrün hər mərhələsi müvafiq olaraq bir heyvan bənzətməsi ilə verilir: *On ýaşyňda owlaksyň sen / On bäşiňde – toklusyň / Bökmäge-de haklysyň sen / Ýatmaga-da haklysyň / Ýigrimide kürresiň sen / Ýigrimbäşde atsyň sen / Otuz-kyrkda çyn bedewsiň / Elliňde-de itsiň sen / Hem-ä hilegärsiň sen / Hemem akyllysyň sen / Duşman üçin ýaraksyň / Dosta ýakymlysyň sen / Altmyş, ýetmiş, segsen, togsan / Bular özüňe bagly / Gaplaňam bolup bilersiň / Möjegem bolup bilersiň / Şagalam bolup*

[36] Köksel, B. Divanü Lugat i't-Türk'te Yer Alan Efsaneler // Uluslararası Sosyal Araştırmalar Dergisi, Volume 2 / 9 Fall, – 2009, – s. 264

*bilersiň / Doňuzam bolup bilersiň.*[37] Göründüyü kimi, bu şeirdə insan oğlağa, toğluya, uzunqulağa, ata, bədövə, itə, qaplana, canavara, çaqqala, donuza, toyuğa, xoruza bənzədilir.

Əslində bu vücudnamə mətnlərinin poetikasında zoomorfik dünyagörüşün izlərini görmək mümkündür. Vücudnamələrin ilkin nümunələrində insan ömrünün illəri müxtəlif heyvanlarla paralel şəkildə təqdim edilir.

Türk folklorundan nümunə olaraq verdiyimiz bu şeirdə 5-90 yaş arası insan ömrünün hər onilliyi bir heyvanla müqayisə edilir. Müqayisə edilən heyvanlar insanın müəyyən yaş xüsusiyyətlərini əks etdirir. 5-30 yaş arası seçilən heyvanlar insan toplumunda güc, qüvvə, əzizlənmə, bəslənmə semantikası ilə çıxış edir. 40-80 yaş arası mərhələdə bənzədilən heyvanların isə semantik yükü mənfidir. Ümumiyyətlə, türk xalqlarının dünyagörüşündə zoomorfik simvolizm müxtəlif çalarlarla əks olunur və bədii sözdə təşbih və təşxis kimi poetik fiqurlarla üzə çıxır. J.P.Rouksa görə, bunun səbəbi onları müqəddəsləşdirmək, həmçinin məişət işlərində onlardan istifadə etməklə bağlıdır.

Türk xalqlarının arxaik janrlardan olan tapmacalarda yaş fəlsəfəsi heyvan simvolizmi ilə öz əksini tapır. Bunu türk, türkmən, Azərbaycan və özbək folklor mətnləri sübut edir. Yuxarıda nümunə olaraq verdiyimiz vücudnamənin digər bir variantında yenə də ömrün hər mərhələsi müəyyən heyvan simvolu ilə paralel şəkildə verilir: *Beş çocuk / On koyun / Yirmi delikanlı / Otuz aslan / Kırk kaplan / Elli at / Altmış yat / Yetmiş öküz / Seksen deve / Doksan tavuk / Yüz yumurta / Koy çuvala / Vur duvara*![38]

Bu vücudnamələrə nəzər saldıqda metafor vasitəsi olaraq eyni heyvanlara müraciət edildiyini görürük. Əslində bu heyvanlar təsadüfi seçilməmişdir. Qədim türklərdə bu heyvanların hər birinin müsbət tərəfi təqdir edilir və bir ordu sərkərdəsində həmin müsbət cəhətlərin təmsil edilməsi arzu olunurdu.

Türk xalqlarının əfsanələri ilə bu vücudnamələri qarşılaşdırdıqda doğum, həyat yolu, ölüm, bir sözlə, ömür haqqında zoomorfik simvolizmin kollektiv təhtəlşüurdakı izlərini daha aydın görürük. “Azərbaycan folkloru antologiyası” (Ağdaş folkloru) kitabında verilən “İnsan ömrü” əfsanəsində deyilir ki, *Allah insanı yaradanda ona on beş il ömür verir. İnsan bir müddət sonra darıxır. Yanında hənirti*

[37] Fikrətqızı, E. Türk xalqları ədəbiyyatında vücudnamələr: [2 cilddə] / E. Fikrətqızı.– Bakı: Elm, – c. 1. 2015. – s. 21-22

[38] Kaya, D. Yaşnameler / D.Kaya– Ankara: Akçağ Yayınları, – 2004, – s. 385

*istəyir. Allah bir it yaradır, onun 30 illik ömrünün yarısını da insana verir. On beş ildən sonra insan ona bir köməkçi lazım olduğunu deyir. Allah bir eşşək yaradır və onun da ömrünün yarısını, on beş ilini insana verir. On beş il sonra insan yenidən köməkçi istəyir. Allah bir at yaradır və ömrünün on beş ilini insana bağışlayır. On beş il sonra insan şikayət edir ki, başını qatmağa bir şey yaratsın. Allah meymun yaradır və onun da ömrünün 15 ilini insana bağışlayır.*[39] Bu əfsanənin türk variantlarında isə Tanrı əvvəlcə uzunqulağı yaradır, 50 il ömür verir. Lakin uzunqulaq bu qədər ömür sürüb, yük daşımaq istəmədiyini bildirir. Tanrı ona 20 il ömür verir. Sonra köpəyi yaradır və ona 25 il ömür verir. Köpək də 10 ilin ona bəs edəcəyini deyir. Sonra meymunu yaradır və ona 20 il ömür verir. Meymun da sadəcə 10 il ömür istəyir. Nəhayət, Tanrı insanı yaradıb, ona 20 il ömür verir. Lakin insan bunun çox az olduğunu bildirir və Tanrı uzunqulaqdan, köpəkdən, meymundan qalan ömürləri də insana bağışlayır. Bu əfsanələrdə və on iki heyvanlı türk təqvimində adları çəkilən heyvanların semantik paralelliyi göz önündədir.

Beləliklə, anonim vücudnamələr qədim dövr türklərinin yaş psixologiyasını əks etdirir. Azərbaycan, türk və türkmən əfsanə və rəvayətlərində zoomorfik vücudnamələr bu janrın genezisində özünəməxsus yer alır. Bu isə ümumtürk təfəkküründə zoonimik semantikanın vurğulanmasıdır.

İkinci fəslin digər yarımfəsli **"Təsəvvüfi vücudnamələr"** başlığı altında işlənmişdir. Vücudnamə janrının arxitektonikasında təsəvvüfi məzmun Əhməd Yəsəvi yaradıcılığı ilə başlayır. Təsəvvüfi vücudnamələr həm klassik şeirdə, həm də aşıq şeirində məhz Əhməd Yəsəvinin hikmətlərinin məzmun arxitektonikası üzərində qurulmuşdur. Əhməd Yəsəvi türk xalqları şeirində təsəvvüfün qurucusu olduğu kimi, vücudnamə janrının da ilk örnəklərindən birinin yaradıcısıdır.

Əhməd Yəsəvinin qurduğu təriqət türklər arasında təsəvvüfün yayılmasında böyük rol oynamış, ədəbi, mədəni, tarixi abidələrdə öz izlərini qoymuşdur. Əhməd Yəsəvinin türk xalqları ədəbiyyatına təsiri klassik şeirdə olduğu kimi, aşıq poeziyasında da özünü göstərmişdir. Bildiyimiz kimi, Əhməd Yəsəvinin təsəvvüfi görüşlərinin şeirlə ifadəsi hikmətlər adı altında toplanmış və "Divani-hikmət" adı altında nəşr edilmişdir. Əhməd Yəsəvinin Kemal Erarslan tərəfindən hazırlanmış həm ""Divani-Hikmət"dən seçmələr" (1991), həm də "Fəqrnamə" (2016) adlı kitablarında vücudnamə mətnlərinə rast

---

[39] Azərbaycan folkloru antologiyası, XVI kitab (Ağdaş folkloru). – Bakı: "Səda" nəşriyyatı, – 2006. – s. 16-17

gəlirik.

"Divani-hikmət"dəki vücudnaməsində Əhməd Yəsəvi türk xalqları poeziyasında ilk dəfə təsəvvüfi kontekstdə ruhun seyrini yaşlar üzrə ifadə etmişdir. Qeyd edək ki, "Divani-hikmət"də 6 ayrı hikmətdə 88 dördlük vasitəsilə vücudnamə yaradılmışdır.

Əhməd Yəsəvinin vücudnaməsinin arxitektonikası aşağıdakı sxem üzrə qurulmuşdur:




Qeyd edək ki, bu struktur sonradan bir çox vücudnamələr üçün arxetip məzmun qəlibi kimi çıxış etmiş, Merac və çiləxana hissələri istisna olmaqla, digər struktur-semantik parçalar həm klassik poeziyada, həm də aşıq şeirində örnək mətn mövqeyində olmuşdur.

Əhməd Yəsəvinin "Divani-hikmət" əsəri ilə yanaşı, "Fəqrnamə" adlı əsərində də vücudnaməyə rast gəlirik. Ümumiyyətlə, ikinci əsər birincinin sanki qısa xülasəsidir.

Həm "Divani-hikmət"dəki, həm də "Fəqrnamə"dəki vücudnamələr təsəvvüfi məzmuna malikdir və insan ömrünün merac, bəzmi-ələst, dəniz, dərya, damla, şam, pərvanə, torpaq, cüzz-küll kimi simvollarla ifadəsidir.

Yəsəvi "Divani-hikmət"dəki vücudnaməsinə Merac hadisəsi ilə başlayır. Daha sonra kamil insan probleminin də mərkəzində yer alan Merac hadisəsi mütəsəvviflərin ruhunun seyrində ən son mərhələdir. Qeyd edək ki, Əhməd Yəsəvinin "Hekayəti-Merac" başlıqlı digər bir hikməti də vücudnamənin məzmun və forma tələblərinə uyğundur.

Şeirdə Türküstan piri Məhəmməd peyğəmbərin Allahın dərgahına yüksəlməsi və ümməti üçün "yaş diləməsi" təsvir edilir. Bu hikmətin də vücudnamə olması bizdən öncə türkiyəli alim Namiq Açıkgözün diqqətini cəlb etmişdir. Təsəvvüfdə vəhdəti-vücud fəlsəfəsini ifadə etmək üçün istifadə edilən istilahlardan biri də cüzz və küll anlayışıdır. Hissə və tamın, bəndə ilə Yaradanın münasibətlərini ifadə etmək üçün bildirilən bu termin varlığın dərkində müraciət edilən təsəvvüfi simvoldur.

Əhməd Yəsəvi kimi mütəsəvvif bir şairin türk xalqlarının yazılı ədəbiyyatında vücudnamənin ilk nümunələrindən birinin qələmə alması sonrakı mərhələdə janrın məzmun arxitektonikasında təsəvvüfi çalarların əks olunmasında böyük rol oynayır. Bu cür təsəvvüfi simvollardan biri bəzmi-ələstdir. "Ələst məclisi" mənasını verən bu ifadə Quranın Əraf surəsinin 172-ci ayəsində öz əksini tapır. Bəzmi-ələst ruhların dünyaya enmədən öncə Allahın varlığını təsdiq etmələri ilə əlaqədar bir məclisdir.

Əhməd Yəsəvi səkkiz yaşında artıq haqq aşiqi olduğunu, piri-muğan əlindən mey içdiyini və hikmət söyləməyə başladığını vurğulayır. Daha sonra məhəbbət dastanlarında buta və ya badə motivi olaraq qarşımıza çıxan bu motivin də əsası Əhməd Yəsəvi poeziyasından qaynaqlanır:

*Elest şarabını pîr-i mugân doyasıya verdi,*
*İçiverdim miktarımca koyuverdi,*
*Kul Hâce Ahmed içim dışım yanıverdi,*
*Tâliplere inci cevher saçtım, dostlar.*[40]

Piri-muğandan ilahi eşq badəsini içən aşiq həm ələst bəzminə işarə edir, həm də mürşidlərini xatırlayır. Əhməd Yəsəvinin formalaşdırdığı türk təsəvvüf sistemi daha sonrakı dövrlərdə klassik türk ədəbiyyatının məzmun xüsusiyyətlərinin müəyyənləşməsində böyük rol oynayır.

Təsəvvüfdə dəniz xüsusi rəmz kimi istifadə edilən bir sözdür və Allahın təcəllilərini bildirir. "Fəqrnamə"də Əhməd Yəsəvi deyir:

*Kudret ile Hak'tan bize buyruk oldu,*
*Dipsiz deniz içine yalnız düştüm, dostlar.*

---

[40] Erarslan, K. Yesevî'nin Fakr-nâmesi / K.Erarslan. İnceleme Araştırma Dizisi, – Ankara: Yayın No: 32, – 2016, – s. 51

*O denize kadir Rabb'ım buyurdu,*
*Allah`a hamd olsun, sıhhat ve esenlikle geçtim, dostlar.*[41]

Təsəvvüfi düşüncəyə görə, insan varlığı da bu baxımdan bir təcəllidir. "Dibsiz dəniz" burada ikili semantika daşıyır: 1) Allahdan qopan nurun – ruhun kainatda (dibsiz dənizdə) öz yerini alması; 2) Tanrının buyruğu ilə ruhun ana bətnində (dibsiz dənizdə) öz yerini alması. Dəniz burada real mənasında deyil, "seyri-süluk dənizi" kimi başa düşülməlidir. Allahdan ayrılan ruh səyahətə başlayır. O, ruhlar aləmindən ana bətninə, oradan işıqlı dünyaya enir, sonra isə geriyə dönüş başlanır. Xaltanlı Tağının da vücudnaməsində ana bətni dəniz təşbehi ilə ifadə edilir və qətrə, ləpə sözləri ilə ruhun həmin dənizdə başlayan yolçuluğuna işarə edilir:

*Haqq məni eylədi mütfi anaya,*
*Güzar etdim qeyri-mehmanxanaya,*
*Süzüldüm qətrədən düşdüm araya,*
*Ləpə çəkdi məni qırağa gəldim.*

*Qırx gün qaldı o qətrələr duruldu,*
*İki qırxımda rəngim təğayür oldu,*
*Üç qırxımda mənə mələk buyruldu,*
*Dört qırxımda qan idim, qaltağa gəldim.*[42]

Xəstə Qasımın və Qaracaoğlanın vücudnamələrində də dərya məfhumu eyni təsəvvüfi mənanı ifadə edir. Təsəvvüfi ədəbiyyatda qeyd edildiyinə görə, "dərya" kamil insanın semantik paralelidir. On üç yaşında ən sonuncu mərhələyə - mərifət qapısına yetişən dərviş onun səciyyəvi əlamətlərini də verir. Çünki təsəvvüfi ədəbiyyatda qeyd edildiyi kimi, mərifət qapısı ağılla deyil, sirlə bağlıdır.

Şeirdə vəhdət dənizinin sirlərini bilən aşiqin digər iki təsəvvüfi metaforanı – şam və pərvanə simvolunu da məhz mərifət qapısında yada salması boşuna deyildir. Çünki ilahi eşq yolunda bu qapını açan və günü-gündən yanaraq, öz varlığını əridən, Allahla bütünləşən və birləşən aşiq eynilə yanan şamın ətrafında dolanaraq sonda onunla

---

[41] Erarslan, K. Yesevî'nin Fakr-nâmesi / K.Erarslan. İnceleme Araştırma Dizisi, – Ankara: Yayın No: 32, – 2016, – s. 50

[42] Fikrətqızı, E. Türk xalqları ədəbiyyatında vücudnamələr: [2 cilddə] / E. Fikrətqızı.– Bakı: Elm, – c. 1. 2015. – s. 183

birlikdə yanan pərvanə kimidir.

Böyük mütəsəvvif Əhməd Yəsəvinin yaratdığı bu arxetip qəliblər insanın yaradılışını, vəhdət dünyasında seyrini ifadə edir. Həm "Divani-hikmət"də, həm də "Fəqrnamə"də verilən vücudnamə mətnləri müəllifin müxtəlif yaşlarının təsəvvüfi məzmun səciyyəsi ilə verilir. Göründüyü kimi, "Divani-hikmət" və "Fəqrnamə"dəki vücudnamə mətnlərinin təsəvvüfi simvolikası daha sonra aşıq yaradıcılığında öz izlərini qoyur.

Təsəvvüfi vücudnamələr içərisində Qayğısız Abdalın "Vücudnamə" və Aşıq Paşanın "Səma" risalələri də xüsusi yer tutur. Qayğısız Abdalın "Vücudnamə" risaləsində vücud sözü hərfi mənasında deyil, varlıq fəlsəfəsi və vəhdəti-vücud təlimi ilə əlaqədə verilir.

Aşıq Paşanın "Səma" risaləsində insan ömrü ilin fəsilləri ilə əlaqədə təsvir edilir. Risalə nəsrlə yazılmışdır. Təsəvvüfi məzmun daşıyan risalədə insan həyatı ilin dörd fəslinə bənzədilir. İnsan ömrü səksən yaşa kimi təsvir edilir. 1-20 yaş yaz fəslinə, 20-40 yaş qış fəslinə, 40-60 yaş payız, 60-80 yaş qış fəslinə bənzədilir.

Qarslı şair Cemal Hocanın vücudnaməsində də təsəvvüfi məzmun aparıcıdır. Onun vücudnaməsinin ilk səkkiz bəndi təsəvvüfi məzmundadır və Cemal Hoca digər bu tip vücudnamə mətnlərlə əlaqəli arxetiplərdən istifadə edir: bəzmi-ələst, dörd ünsür, ağac, daş, cəmadat və s.

*Mevcudattan hiçbir eser yok iken,*
*Emroldu huzur-ı Rahman göründü.*
*Orda ruhlar cem oldular kemâkân,*
*Vahdet hanesinde seyran göründü.*[43]

Cemal Hoca ruhların Allahın varlığını təsdiq etdikləri məclisi "məclisi-kübra" olaraq adlandırır. Bu məclisdə Onun fərmanı ilə maddi dünyanın yaradılmasına başlanılır və ruhların maddi aləmdəki yerləri müəyyən edilir. Digər islami türk mətnlərində olduğu kimi, Cemal Hoca da yaradılış fərmanının "kün əmri" ilə başladığını qeyd edir.

---

[43] Uslu, E. Kars İli Âşıklık Geleneği İçinde Kağızmanlı Âşık Cemâl Hoca'da Gelenek, Etkileşim ve Eğitim / T.C. Dokuz Eylül Üniversitesi Eğitim Bilimleri Enstitüsü, Türkçe Eğitimi Anabilim Dalı, Türkçe Öğretmenliği Programı, Yayınlanmamış Yüksek Lisans Tezi, – İzmir, – 2011, – s. 389

Beləliklə, Əhməd Yəsəvi yaradıcılığından başlayaraq, vücudnamənin məzmun arxitektonikasında təsəvvüfi məzmun özünü göstərir. “Divani-hikmət” və “Fəqrnamə” əsərlərində yer alan vücudnamə mətnlərindəki təsəvvüfi simvol və qəliblər daha sonra əruz vəznində qələmə alınmış vücudnamələrdə, həmçinin müəyyən aşıqların yaradıcılığında da təzahür edir.

**“Qız və qadınlar haqqında vücudnamələr”** adlanan paraqrafda qeyd edilir ki, türk xalqlarının poeziyasında, təxminən, 16 vücudnamə mətni qız və qadınların ömründən bəhs edir. Manisalı Cami tərəfindən XVI əsrdə qələmə alınmış “Məhəbbətnamə” adlı məsnəvidə klassik ədəbiyyatda ilk dəfə olaraq qızlar haqqında da vücudnamə yaradılmışdır.[44] Daha sonra aşıq yaradıcılığında qız və qadınlarının ömrünü təsvir edən, xüsusilə gənclik yaşlarını vəsf edən vücudnamələr ortaya çıxmışdır. Lakin Manisalı Caminin vücudnaməsinin arxitektonikası (həm qadın, həm kişi cinsinin yaşlarından bəhs etmə ənənəsi) aşıq yaradıcılığında davam etdirilmir. Sadəcə Həyatı Vəsfi və Oğuz Yorgancıoğlunun vücudnamələrində həm kişinin, həm də qadının obrazı verilmiş və yaşlar üzrə hər iki cins arasında müqayisələr aparılmışdır.[45]

Aşıq yaradıcılığına məxsus qız-qadınlara həsr olunmuş vücudnamələrdə isə əsasən beşikdən qəbrə qədər qadınların ömür yolu təsvir edilir. Aşıq Şenlik, Dollu Mustafa, Şair Əli, Əli Ertekin, Fəxri (Ali Karabulut), Fəhmi Gür, Həyatı Vəsfi, İcazət, İrfani, Qaracaoğlan, Madeli Cüsipkocauli, Müdami kimi aşıq və şairlərin vücudnamələrində qadınların ömür yolundan bəhs edilir, onların uşaqlıq, gənclik və qocalıq dövrlərindəki obrazları sözlə çəkilir. Daha doğrusu, adətən qız uşağının kiçik yaşlarındakı halından yetkinlik dövrünə qədəm qoyması və dəyişən fiziki xüsusiyyətləri, 15-16 yaşlarında sevilib sevməsi, istənilməsi və evlənməsi, ana olması, nənəlik dövrü və qocalması, ömrünün sonunda tənhalığı və kimsəsizliyi dilə gətirilir. Aşıq Şenliyin vücudnaməsi həcmcə daha böyükdür. 14 dördlükdən ibarət şeir qız uşağının dünyaya gəlməsindən yüz yaşına kimi ömür

---

[44] Memmedova-Kekeç E.F. Metinlerarası İlişkide Yaş Destanları (Manisalı Cami`nin “Muhabbetname” Mesnevisi ve Oğuz Yorgancıoğlu`nun “Yaş Destanı” Örneğinde) // Üçüncü Uluslararası KIBATEK Kıbrıs Türk Edebiyatı ve Edebiyatçıları Sempozyumu Bildirileri, 5-6 mart 2018, – KKTC, Birinci cilt, Lefkoşa: Çevik Matbaacılık, – 2018, – s. 223-231

[45] Memmedova, E.F. Kıbrıs Yaş Destanları Üzerine Genel Bir Değerlendirme // – Ankara: Motif Akademi Halkbilimi Dergisi, Kıbrıs Özel Sayısı, – 2013, Pınarbaş Matbaası, sayı: 1, – s. 243-259

mərhələsini təsvir edir.

**"Tərcümeyi-hal səciyyəsi daşıyan vücudnamələr"** adlı paraqrafda isə Əhməd Yəsəvi, Aşıq Bəhmən Göyçəli, Dollu Mustafa, Hacı Loğman Qorqud, Molla Məhərrəm, Mollamurt, Molla Nəfəs, Molla Cuma, Aşıq Mövlud İhsani, Ballı Bayraqdaroğlu, Əbubəkr Kerderi Şokanulı, Fəhmi Gür, Hüseynoğlu Balı, Talibi Coşğun, Veysəl Cehdi, Yürəklinin vücudnamə yaradıcılığından bəhs edilir.

Türk xalqları poeziyasında, daha dəqiq söyləsək, Türkiyə şeirində avtobioqrafik vücudnamələr arasında Talibi Coşğunun qoşması da diqqəti cəlb edir. Bu şeirdə hələ ana bətnindən başlayaraq insan ömrünü təsvir etməyə çalışan şair iyirmi yeddi yaşına qədər başına gələnlərdən bəhs edir. Şair on yaşına qədər nazlandırılmasını və valideynləri tərəfindən sevilməsini dilə gətirir. On iki yaşını şair xüsusilə vurğulayır, çünki bu yaşına çatanda səfərbərlik elan edilir və atası orduya çağırılır. On üç yaşında isə atası şəhid olur və şairin bundan sonra kədərli günləri başlayır:

*On ikide seferberlik kuruldu,*
*Cümle asker bir araya derildi,*
*Her birisi bir yazıda kırıldı,*
*Atamadım yüreğimden sızımı.*

*On üç yaşımda da fikire daldım,*
*Babam şehit oldu, ben yetim kaldım,*
*Umur başa düştü perişan oldum,*
*Ağlayıp yumardım iki gözümü.*[46]

Bu cür vücudnamələr müəllifin şəxsi həyatını əks etdirir.

**"Tarixi hadisələri əks etdirən vücudnamələr"** başlıqlı paraqrafda Molla Nəfəs, Mollamurt, Aşıq Bəhmən Göyçəli, Cemal Hoca kimi aşıq və el şairlərinin vücudnamələrindən bəhs edilir. Türkmən el şairləri olan Molla Nəfəs və Mollamurtun vücudnamələrində isə özlərinin deyil, çağdaşlarının həyatları haqqında bəzi tarixi bilgilər verilir. Molla Nəfəsin şeirində Qaraoğlan Bəy adlanan bir şəxsin ömrünün müəyyən mərhələləri haqqında məlumat verilir. Molla Nəfəs yaradıcılığında Qaraoğlan xana həsr olunmuş bir sıra şeirlər diqqəti cəlb edir. Bu şeirlərdən biri də "Cahana gəldi" başlıqlı vücudnamədir.

Mollamurtun vücudnaməsində isə Qurbanmurat Ağa adlı bir

---

[46] Fikrətqızı, E. Türk xalqları ədəbiyyatında vücudnamələr: [2 cilddə] / E. Fikrətqızı.– Bakı: Elm və təhsil, – c. 2. – 2018. – s. 283

kişinin 10 yaşından ölümünə, yəni 29 yaşına qədər ömrü və qəhrəmanlıqları, igidliyi mədh edilir. Bu şeirdə şairin tanıdığı tarixi bir şəxsiyyətin tərcümeyi-halı ilə bağlı müəyyən məlumatlar əldə etməyimizə kömək edir.[47]

XX əsr vücudnamə müəlliflərindən birisi olan Aşıq Bəhmən Göyçəlinin şeiri də sovet ideologiyasını əks etdirən, zəhmətkeş sinfi və "Böyük Oktyabr inqilabı"nı tərənnüm edən bir əsərdir. Bunlarla yanaşı, vücudnamədə Lenin, Qızıl Ordu, partiya, kolxoz kimi Sovet dövrünü əks etdirən obraz və reallıqlar da yer alır. Doqquz bənddən ibarət şeirdə müəllif şəxsi həyatı ilə ölkə həyatında baş verən tarixi hadisələri əlaqələndirərək təsvir edir.[48]

Yuxarıda adlarını qeyd etdiyimiz aşıqlardan başqa, Qarslı şair Cemal Hocanın da vücudnaməsi də şəxsi və tarixi aspektdə qələmə alınması ilə diqqəti cəlb edir. Belə ki, təsəvvüf, tərcümeyi-hal və siyasi-tarixi hadisələrin bədii əksinə çevrilən bu vücudnamənin arxitektonikası mürəkkəb məzmun strukturuna malikdir. Cemal Hoca yaşnaməsində həm ənənədən gələn təsəvvüfi məzmuna əsaslanaraq insanın yaradılışını geniş şəkildə verir, həm də vətəndaşlıq mövqeyindən çıxış edərək türk millətinin tarixini təsvir edir və oxucunu tarixdə baş verənlərdən dərs çıxarmağa səsləyir. "Göründü" rədifli bu vücudnamənin qaynaqlarda "Yaş dastanı" və ya "Yaradılış dastanı" adı ilə iki variantına rast gəlirik. Doğan Kayanın tərtibində bu əsər qısa şəkildədir, 35 bənddən ibarətdir. Esra Uslu adlı tədqiqatçının "Kars İli Âşıklık Geleneği İçinde Kağızmanlı Âşık Cemâl Hoca'da Gelenek, Etkileşim ve Eğitim" adlı tədqiqat işində isə həmin vücudnamə geniş şəkildə (74 bənd) verilir. Müqayisə zamanı aydın olur ki, iki mətn arasındakı fərq birincidə ermənilərin türklərə qarşı əməlləri ilə bağlı hissənin olmamasıdır.

I Dünya müharibəsinin bütün bəşəriyyət və bölgə insanları üçün fəlakətə səbəb olduğunu qeyd edən Cemal Hoca ermənilərin Anadoluda türklərə qarşı soyqırım siyasəti yeritdiklərini xüsusilə vurğulayır. *"Yaradılış dastanında 93-cü ilə hərbi ilə başlayan və uzun illər erməni və rus məzalimi baş verən faciəli dönəmlər, I Dünya*

---

[47] Məmmədova-Kekeç, E.F. Türkmən poeziyasında vücudnamənin tarixi seyri (müəlliflər və örnəklər) // "Türk xalqları ədəbiyyatı: mənşəyi, inkişaf mərhələləri və problemləri" mövzusunda beynəlxalq elmi konfransın materialları, AMEA Nizami adına Ədəbiyyat İnstitutu, – Bakı, – 1-2 dekabr 2015-ci il, – s. 215-219

[48] Məmmədova, E.F. Çağdaş vücudnamələr // – Ankara: Motif Akademi Halkbilimi Dergisi, – 2010, sayı: 2, – s. 52-57

*Müharibəsi və bu dövrdə Kağızmanın vəziyyəti təfərrüatlı şəkildə təsvir edilir. Bu bölümlərdə tarixi hadisələr təsvir edilərək yeni nəsillərə çatdırılır və yeni nəsillərin bu olaylardan dərs çıxarması məqsədi güdülür*".[49] Cemal Hoca xüsusilə erməni və rusların iş birliyi nəticəsində Qars elində baş verən faciələri dilə gətirir:

*Ruslar terk eyledi Kafkas elini,*
*Ermeniye verdi millet malını,*
*O da tutup yaktı gelini, kızı,*
*Alevler yükseldi duman göründü.*[50]

Göründüyü kimi, ömrünün 32-ci ilindən sonra artıq tarixi hadisələrin rumi hesabla təsvirinə keçən Cemal Hoca türk ordusunun imdada yetişməsindən, lakin ingilislər vədlərinə xilaf çıxınca yenə də gərgin və çətin günlərin yaşandığından bəhs edir. Cemal Hoca doğulub, boya-başa çatdığı bölgənin erməni tapdağına çevrilməsinin müvəqqəti olduğunu, lakin türk millətinin, xüsusilə günahsız insanların həmin dönəmdə düşmənlərin hücumuna dəfələrlə məruz qalmasını bildirir. Cemal Hoca yaşnaməsində qəhrəman türk paşalarının da adlarını çəkir və məhz onların qəhrəmanlığı sayəsində xalqın erməni zülmündən qurtulduğunu vurğulayır.

**"Vücudnamələrdə vəzn və janr problemləri"** adlanan üçüncü fəsil "Mənsur vücudnamələr", "Vücudnamələrin şeir texnikası" və "Vücudnamələrlə digər şeir formalarının əlaqəsi" adlı üç paraqrafdan ibarətdir.

Türk xalqlarının vücudnamə yaradıcılığının vəzn və janr "mənzərəsi" müqayisəli ədəbiyyatşünaslıq kontekstində zəngin və rəngarəng bir sistemin olduğunu göstərir. Tarixi inkişaf prosesində heca, əruz vəznlərində və sərbəst şeirlə qələmə alınan vücudnamələr Azərbaycan ədəbiyyatşünaslığında daima qoşmanın bir növü olaraq araşdırılmışdır. Amma müxtəlif türk xalqlarının şifahi və yazılı ədəbi nümunələrindən toplanmış örnəklər əsasında vücudnamənin ayrıca bir janr olması qənaətinə gələ bilərik. Vücudnamənin tarixi kontekstdə digər janrlarla əlaqəsi, insanın yaradılışı, ömrü və müxtəlif yaşları ilə bağlı şeirlərin dövriyyə, qəzəl, əlifnamə, qoşma, gəraylı, müxəmməs

---

[49] Uslu, E. Kars İli Âşıklık Geleneği İçinde Kağızmanlı Âşık Cemâl Hoca'da Gelenek, Etkileşim ve Eğitim / T.C. Dokuz Eylül Üniversitesi Eğitim Bilimleri Enstitüsü, Türkçe Eğitimi Anabilim Dalı, Türkçe Öğretmenliği Programı, Yayınlanmamış Yüksek Lisans Tezi, – İzmir, – 2011, – s. 84
[50] Yenə orada, s. 393

kimi janrlarda, həmçinin dastan və məsnəvilərin tərkibində rast gəlinməsi onun stabil bir forma quruluşuna malik olmadığını göstərir. Vücudnamə janrlararası əlaqədə fərqli arxitektonikaya malik formalarla səciyyələnir.

Hər hansı bir janrın arxitektonikasının məzmun və forma xüsusiyyətlərini tam olaraq öyrənmək üçün onun inkişaf yolunu bütövlükdə, həm də ümumtürk ədəbiyyatı kontekstində izləmək vacibdir. Belə olan halda hər hansı bir janrın inkişaf prosesində baş verən struktur-semiotik dəyişmələri aydın şəkildə görmək mümkündür. Əks halda vücudnamə aşıq şeirinin ifadə forması kimi (sadəcə qoşma və gəraylı olaraq) başa düşülür və janrın arxitektonikasının tarixi qatları dəyərləndirmədən kənar qalır. Lakin türk xalqları ədəbiyyatında vücudnamələrin arxitektonik təhlili nəticəsində məlum olur ki, bu mətnlər heç də sadəcə nəzmlə deyil, nəsrlə də qələmə alınmışdır.

**“Mənsur vücudnamələr”** adlı paraqrafda bildirilir ki, mənsur vücudnamələr say etibarilə çox olmasa da, janrın təkamülündə özünəməxsus yer tutur. Bu baxımdan Aşıq Paşanın “Səma”, Qayğısız Abdalın “Vücudnamə”, Sultan II Muradın “Fateh Sultana nəsihətlər” kimi risalələrini qeyd etmək olar. Qeyd edək ki, ilk iki vücudnamə təsəvvüfi məzmundadır və mərkəzində kamil insan problemi yer alır. Sultan II Muradın vücudnaməsi isə əxlaqi-didaktik məzmuna malikdir.

**“Heca vəznli vücudnamələr”** adlı paraqrafda heca vəznli vücudnamələrin şifahi xalq ədəbiyyatı örnəklərindən başlandığı, Əhməd Yəsəvinin vücudnaməsi ilə davam etdirildiyi, daha çox isə aşıq yaradıcılığında rast gəlindiyi vurğulanır.

Müxtəlif türk xalqlarının aşıq yaradıcılığından toplanmış heca vəznli vücudnamələr, əsasən, qoşma və gəraylı şəklindədir. Aşıq yaradıcılığına qədərki mərhələdə isə şifahi nümunələr arasında heca vəznli vücudnamələrə rast gəlirik. Yuxarıda qeyd etdiyimiz kimi, vücudnamə Azərbaycan filoloji fikir tarixində sırf aşıq şeirinin bir şəkli kimi öyrənilmiş, ədəbi-nəzəri araşdırmalarda janrın məzmun və forma cəhətdən zənginliyi nəzərə alınmamışdır. Aşıq şeirinin ozan poeziyasının təkamülündə növbəti mərhələ olduğunu nəzərə alsaq, əslində vücudnamələrin də aşıq poeziyasında yeni bir şeir forması olmadığını, qədimdən gələn ənənənin davamı olduğunu düşünə bilərik.

Oğuznamələrdə yaşa münasibət yuxarıda qeyd etdiyimiz dastanlardan fərqlidir. "Kitabi-Dədə Qorqud" dastanında qəhrəmanın epik bioqrafiyası tam olaraq verilməsə də, yetkinlik dövrünə qədər müəyyən yaşların səciyyəsindən bəhs edilir. "Kitabi-Dədə Qorqud" dastanının Günbət əlyazmasının 18-ci soylamasında da vücudnamə mətninin olması janrın inkişaf tarixindəki müxtəlifliklərdən xəbər verir.[51]

Beləliklə, vücudnamələrin arxitektonikasında heca vəznli örnəklərin şifahi nümunələrdən başladığını, Əhməd Yəsəvi yaradıcılığında inkişaf etdiyini və aşıq şeirində formalaşdığını görürük.

**"Əruz vəznli vücudnamələr"** haqqında isə deyə bilərik ki, Azərbaycan ədəbiyyatşünaslığında vücudnamələr indiyə qədər sadəcə şifahi xalq ədəbiyyatının predmeti kimi öyrənilmiş, folklor mətnləri kimi öz izahını tapmışdır.[52] Halbuki ümumtürk ədəbiyyatı kontekstində məsələyə yanaşıldıqda, janrın özünəməxsus təkamül yolu onun yazılı ədəbiyyatla da əlaqədə öyrənməyin mümkünlüyünü göstərir. Janrın inkişaf dinamikasında divan ədəbiyyatı nümunələrinin və orta əsrə aid mənsur risalələrin də müəyyən rolunun olduğunu mütləq qeyd etmək lazımdır.

Türk xalqlarının yazılı ədəbiyyatının daha sonrakı mərhələsi islami türk ədəbiyyatının formalaşması və bu kontekstdə ilk nümunələrin qələmə alınmasıdır. Həmin nümunələr arasında ilk olaraq "Qutadqu bilik" və "Divani-hikmət" əsərlərinin adlarını çəkmək mümkündür. Qeyd edək ki, "Qutadqu bilik"dəki vücudnamə əruz, "Divani-hikmət"dəki vücudnamə isə heca vəznindədir. Yusif Balasaqunludan sonra məsnəvi daxilində vücudnamə yaradan digər bir sənətkar görkəmli şair Nizamidir. O, fars dilində və həzəc bəhrində qələmə aldığı "Xosrov və Şirin" əsərində baş qəhrəmanın ömür yolunun təsvirində vücudnaməyə müraciət etmişdir. Xosrovun qəhrəman kimi yetişməsində onun müxtəlif yaşlarından bəhs edən Nizami əslində müxtəlif məsnəvilərdə qarşılaşdığımız vücudnamələrdə olduğu kimi, burada da, əsasən, 40 yaşına qədər insan övladının özünə ad qazanması

---

[51] Memmedova-Kekeç, E.F. Dede Korkut Kitabı'nın Günbet Yazması`ndaki Yaşname Metni Üzerine // Zeıtschrıft Für Dıe Welt Der Türken / Journal Of World Of Turks, Vol 11, No 2 (2019), – s. 31-42

[52] Məmmədova-Kekeç, E.F. Türk xalqları ədəbiyyatında əruz vəznli vücudnamələr // – Bakı: "Türkologiya" jurnalı, – 2019, sayı 2, – s. 32-41

və ömrünü gözəl bir şəkildə yaşaması ilə bağlı öyüdlər verir.

Nizami Gəncəvinin davamçılarının da məsnəvi yaradıcılığında eyni şəkildə vücudnamə mətnlərinin yer aldığını görürük. Bu baxımdan "Xosrov və Şirin" mövzusunda yazılan nəzirə, eləcə də, tərcümə əsərləri xüsusilə seçilir. Məsnəvilərdə vücudnamələrə müraciət edilməsinin əsası dastan ənənəsindən qaynaqlanır. Ümumiyyətlə, bütün məsnəvilərdəki vücudnamələrin poetik strukturu ilə dastanlardakı vücudnamələr arasında struktur-semantik paralellik var. "Manas", "Bekçi", "Kubıkul", "Kococaş" kimi müxtəlif dastanların giriş bölümündə qəhrəmanın sürətlə böyüməsi motivinə və epik bioqrafiyasına rast gəlirik. Dastanlar üçün səciyyəvi olan bu struktur eynilə adlarını qeyd etdiyimiz məsnəvilərin də arxitektonik elementi kimi diqqəti cəlb edir.

Klassik türk şeirinin görkəmli nümayəndələrindən olan Aşıq Paşanın 1329-cu ildə "Qəribnamə" əsəri əruz vəzninin rəməl bəhrinin fa'ilatün / fa'ilatün /fa'ilün ölçüsündədir. Aşıq Paşanın məsnəvisində şifahi ədəbiyyatdan qaynaqlanan digər poetik elementin – bənzətmə ünsürlərinin yer aldığını görürük. Aşıq Paşa insan ömrünün 80 ilini dörd fəsillə müqayisədə təsvir edir.

XVI əsr müəllifi Manisalı Caminin "Məhəbbətnamə" məsnəvisinin digər adı "Vamiq və Əzra"dır. Bu məsnəvidə də bir yeniliyi müşahidə edirik: hər iki baş qəhrəmanın doğulmasından ilk gənclik yaşlarına qədər ömürləri təsvir edilir.

Beləliklə, tədqiqata cəlb etdiyimiz əsərlər XI-XVI əsrlərə aiddir və türk xalqlarının arxaik dastan mətnlərindən aşıq yaradıcılığına qədərki mərhələdə vücudnamələrin vəziyyətini əks etdirir. Həmin vücudnamələr müstəqil bir əsər kimi təşəkkül etməsə də, məsnəvilər daxilində müəyyən inkişaf prosesindən keçmişdir. XVI əsrdən sonra aşıq yaradıcılığında geniş şəkildə rast gəlinən vücudnamələr heca vəznindədir. Əruz vəznli vücudnamələrin struktur-semiotik xüsusiyyətləri "Qutadqu bilik" məsnəvisinə əsaslanır. Heca vəznli vücudnamələr isə "Divani-hikmət"dəki vücudnamənin arxitektonikası üzərində qurulur. Beləliklə, əruz vəznli vücudnamələrdə qəhrəmanın ömrünün əksərən ilk onilliyi və ya iyirmi illiyi barədə məlumat verilir. Aşıq Paşa isə insan ömrünü 80 il içərisində xülasə edir. Bu strukturda qurulan vücudnamələrdə ömrün ilin fəsilləri ilə müqayisəli təqdiminə

rast gəlirik. Əruz vəznli vücudnamələr semantik baxımdan iki istiqamətdədir: 1) qəhrəmanın ömrünün müəyyən yaşlarının ifadəsi; 2) insan ömrünün ümumi şəkildə xülasə edilməsi. İkinci semantik qrupa aid vücudnamələrdə didaktik məzmun daha qüvvətlidir. Birinci istiqamət Nizami Gəncəvinin, ikinci istiqamət isə Yusif Balasaqunlunun adı ilə bağlıdır. "Qutadqu bilik"də əruz hələ türk şeirinə tam uyğunlaşdırılmadığı və alınma sözlərin miqdarı çox olmadığı üçün vəznin tələblərinə hər zaman əməl edilmir. Daha sonrakı müəlliflərin əsərlərində ərəb və fars sözlərinin işləkliyi artdığı üçün əruz qəliblərinə daha çox uyğunluq müşahidə edilir. Bu cəhət əruz vəznli vücudnamələrdə vəzn baxımından bir sıra təzahürlərin dövrün dil-üslub xüsusiyyətləri ilə bağlı olduğunu, həmin vücudnamələrin aid olduqları məsnəvilərin leksik və semantik xüsusiyyətlərini daşıdığını göstərilir. Dissertasiyanın üçüncü fəslinin növbəti paraqrafı **"Sərbəst şeirlə vücudnamələr"** başlığını daşıyır. İnsanın həyat fəlsəfəsi, varlıq problemi, ömür yolu hər zaman olduğu kimi, çağdaş dönəmdə də ədəbiyyatın əsas mövzularından biri kimi yer alır. Həyat yolları, ömrün müxtəlif mərhələləri ayrı-ayrı geniş həcmli romanların mövzusu olduğu kimi, kiçik həcmli əsərlərdə də xülasə edilə bilinər. Bu baxımdan vücudnamələr həcmindən asılı olmayaraq, insanın ömür yolunu daha çox mənzum şəkildə əks etdirən həyat salnamələri kimi diqqəti cəlb edir. Əhməd Yəsəvidən başlayan ənənə sonradan ayrı-ayrı türk xalqlarının yaradıcılığında uzun əsrlər boyu, demək olar ki, eyni mövzu və forma qəlibləri əsasında davam etdirilir. Hətta bir çox vücudnamələr arasında variantlıq sadəcə müxtəlif türk dillərində yazılma, bəzilərində isə möhürbənddə müəllifin adının dəyişdirilməsi şəklində özünü göstərir. Mövzu baxımından bənzərlik paralel olaraq poetik formanın quruluşunda da müşahidə olunur. Klassik ədəbiyyatda vücudnamə risalə şəklində, məsnəvilərin tərkibindədir, aşıq yaradıcılığında isə daha çox qoşma, gəraylı kimi şeir şəkilləri vücudnamələrin əsas poetik qəlibidir. XX-XXI əsrdə yaradılan vücudnamə örnəkləri isə əsasən sərbəst şeir formasındadır. Bu cür vücudnamələr əvvəlki qəliblərdən müəyyən dərəcədə uzaqlaşır.

Sərbəst şeirlə olan vücudnamələrdə insanın yaş mərhələləri daha çox gündəlik sosial, mənəvi problemlərin fonunda təsvir edilir. Təbii ki, klassik vücudnamələrdə gördüyümüz bir yaşından yüz yaşına

kimi ömür yolunun müqəyyəd təşbihlərlə ifadəsi artıq modern vücudnamələrin səciyyəvi xüsusiyyətlərindən sayılmır. Cümhuriyyət dövrü türk şeirində də sərbəst şeirlə qələmə alınmış vücudnamələrə rast gəlirik. Ümumiyyətlə, Türkiyə ədəbiyyatında XIX əsrdən başlayan yeniləşmə prosesi XX əsrdə klassik şeir ənənəsinin getdikcə zəifləməsinə, daha çox yeni tərzdə, məzmun və forma qəliblərində şeirlərin yazılmasına səbəb olmuşdur. Bütün janrlarda özünü göstərən bu ədəbi proses vücudnamə janrının da yeniləşməsinə təsir göstərmişdir. Cümhuriyyət dövrü türk aşıq şeirində ənənəyə bağlılıq zəminində köhnə qəliblər əsasında vücudnamələr yaradılsa da, Nazim Hikmət, Cahit Sıtkı Tarancı, Özdemir Asaf kimi müəlliflərin yaradıcılığında XX əsr insanının sadəcə qəlib ömrü deyil, müxtəlif yaşlarında psixoloji, sosioloji vəziyyəti də təsvir edilir[53]. Özdemir Asafın "Yaşadıqlarımdan nələr öyrəndim" şeirində 5-95 yaş arası insan ömründə baş verənlər lirik-psixoloji üslubla öz əksini tapır. Beş yaşdan ömrünün yadda qalan mühüm illərinin təsvirini verən Özdemir Asafın vücudnaməsində uşaqlıq, gənclik və qocalıq mərhələlərində həyatdan aldığı dərsləri oxucuları ilə paylaşır:

*YAŞ 5 Anne ve babamın birbirlerine bağırmalarının*
*beni ne kadar korkuttuğunu öğrendim.*

*YAŞ 7 Meşrubat içerken gülersem içtiğimin burnumdan*
*geleceğini öğrendim.*

*YAŞ 12 Bir şeyin değerini anlamanın en iyi yolunun*
*bir süre ondan yoksun kalmak olduğunu öğrendim.*

*YAŞ 13 Annemle babamın el ele tutuşmalarının ve*
*öpüşmelerinin beni daima mutlu ettiğini öğrendim.*

*YAŞ 15 Bazen hayvanların kalbimi insanlardan daha*
*fazla işittiğini öğrendim.*[54]

---

[53] Məmmədova-Kekeç, E.F. Mətnlərarası əlaqədə vücudnamələr və müasir türk şeiri // – Bakı: AMEA-nın Xəbərləri. Humanitar elmlər seriyası, – 2018, sayı: 1, – s. 111-116

[54] Kaya, D. Yaşnameler / D.Kaya– Ankara: Akçağ Yayınları, – 2004, – s. 13

Əslər boyu ənənəvi vücudnamələrin heç birində insanın müxtəlif yaşlarında yaşadığı psixoloji və sosioloji amillər mövzuya çevrilmir. Ümumi insan yaşamından asılı olaraq bəzən Özdemir Asafla ondan əvvəlki vücudnamə müəlliflərinin gənclik dövrü ilə bağlı düşüncələrinin eyni və ya oxşar olduğunu görürük. Cümhuriyyət dövrünün ünlü şairlərindən olan Can Yücel yaradıcılığında da modern vücudnaməyə rast gəlirik. Alleqorik tərzdə yazılmış bu şeir də sərbəst şəkildədir. “25 yaş, 35 yaş, 40 yaş və bugünkü mən” adlanan şeirin qəhrəmanları müəllifin ömrünün müxtəlif yaşlarıdır. 4 müxtəlif yaşını qonaq çağıran şair hərəsinin bir özəlliyi olduğunu vurğulayır:

*-Şunları bir araya toplayayım. Bir güzel muhabbet edelimdiye düşündüm.*

*... Geldiler.*

*20 yaşında ben,*
*35 yaşımda ben,*
*40 yaşımda ben ve*
*bugünkü ben dördümüz.*[55]

Ömər Eken, Cahan Uluişıq kimi türkiyəli şairlərin vücudnamələri də sərbəst şeir formasında olmaqla yanaşı, daha çox çağdaş insanın yaşla bağlı düşüncələrini, bu kontekstdə həmçinin gündəlik qayğılarını, sosial-mənəvi problemlərini əks etdirir.

Cahan Uluişıq adlı müəllifin vücudnaməsində ənənədən gələn məzmun xüsusiyyətləri qorunsa da, vəzn və forma baxımından yenilik müşahidə olunur. Sərbəst şeir şəklində qələmə alınmış şeir “Otuz yaşnamə” adlanır. Bu adlandırma təsadüfi deyildir. Şeir məhz otuz yaşına çatmış müəllif ömrünün üç onilliyinə şeir həsr etmək istəyindən yaranmışdır. Beləliklə, sərbəst şeir formasında qələmə alınmış vücudnamələrə bütün türk xalqları ədəbiyyatında rast gəlirik. Bu vücudnamələr forma baxımından çağdaş şeirin arxitektonikasına uyğun qurulmaqla yanaşı, məzmun baxımından da dəyişikliklər nəzəri cəlb edir. Əvvəlki vücudnamələrdən fərqli olaraq insan ömrü ümumi

[55] Yücel, C. 20 Yaş 35 Yaş 40 Yaş Ve Bugunki Ben. [Elektron resurs] URL: https://www.milliyet.com.tr/siirler/20-yas-35-yas-40-yas-ve-bugunki-ben-6513067

səciyyəsi ilə deyil, fərdi-psixoloji aspektdə təqdim edilir.

“**Vücudnamələrlə digər şeir formalarının əlaqəsi**” adlı paraqrafda vücudnamə janrı ilə bağlı ədəbiyyatşünaslıqda müxtəlif təzadlı fikirlər var. Janrın tarixi arxitektonikası müxtəlif forma quruluşları ilə səciyyələnir. Bu forma vücudnamənin stabil vezninin olmaması ilə yanaşı, ayrı-ayrılıqda janr adlandırılan gəraylı, qoşma, məsnəvi, dastan, ustadnamə və s. kimi strukturların da məzmunca insan ömrünü əks etdirən nümunələrin olmasıdır.

Dissertasiyanın **“Vücudnamələrin tarixi poetikası”** adlı dördüncü fəsli iki paraqrafdan ibarətdir. Burada “Semantik vəhdət” və “Struktur vəhdəti” kimi məsələlər araşdırılmışdır. Hər hansı bir ədəbi mətni düzgün dəyərləndirmək üçün onu diaxron aspektdə araşdırmaq vacibdir. Bu, mətnin şərhində və anlaşılmasında vacib məsələlərdəndir. Tədqiqat obyektimiz olan vücudnamələri bu baxımdan dəyərləndirmək üçün bir neçə mühüm amili nəzərə almaq vacibdir:

1.Vücudnamə çoxmərhələli bir inkişaf yolu keçmişdir;

2.Vücudnamə şifahi xalq ədəbiyyatı nümunəsidir;

3.Vücudnamə yazılı ədəbiyyat nümunəsidir;

4.Vücudnamənin arxitektonikası folklor və klassik şeir ənənəsi üzərində qurulmuşdur.

Vücudnamənin tarixi poetikasında janrın ideya qaynaqlarının və semantik vəhdətin müəyyənləşdirilməsi də vacib məsələlərdəndir. Qaynaqlar sadəcə məzmunla deyil, forma ilə də əlaqəlidir. Nəzərə alaq ki, Göytürk abidələrindən başlayaraq, türk xalqlarının ilk məsnəvi örnəyi “Qutadqu-biliy”ə, türk təsəvvüfi şeirinin ilkin qaynaqlarından olan “Divani-hikmət”dən Qayğısız Abdalın “Vücudnamə” risaləsinə, oradan da aşıq şeirinə kimi əhatəli bir formalaşma yolu keçən vücudnamələr hər inkişaf prosesində müəyyən dövrün tarixi, mədəni, poetik xüsusiyyətlərini özündə cəmləmişdir. Klassik ədəbi mətnlərində, o cümlədən vücudnamələrdə bir qayda olaraq, islam dini inancının izlərini görürük. SSRİ dövrünə qədər qələmə alınan vücudnamələrdə bu inanc sisteminin, Qurandan iqtibasların izləri qabarıqdır. Klassik şeirin, həm də aşıq yaradıcılığının arxitektonikası Quran mətninə əsaslanan dəyişməz qəliblər əsasında for-

malaşdığı üçün müəlliflər müxtəlif olsa da, mətnlərarası əlaqə baxımından çeşidli vücudnamələr sanki eyni örnəklər kimi qarşımıza çıxır. Hər hansı bir klassik mətni dərk etmək üçün onun içərisindəki digər mətnlərin yerini və rolunu bilmək, üzə çıxarmaq və şərh etmək müasir ədəbiyyatşünaslığın vacib məsələlərindəndir. Beləliklə, bir vücudnamə mətni bu polifonik sistemdə islamdan qaynaqlanan bir çox rəmz və mənaların daşıyıcısı olduğu üçün ümumi olan qaynaqlara malikdir. Həmin qaynaqlar əsasən bunlardır:

1. Quran;
2. Hədis;
3. Qisseyi-ənbiya.

Bundan başqa, anonim vücudnamələrin az bir qismində qədim türk mifologiyasının izləri də əks olunur. XX əsrdə isə SSRİ məkanında qələmə alınmış vücudnamələrin ideya qaynaqları içərisində sosialist realizmi cərəyanının da rolunu qeyd etmək mümkündür. Türk xalqlarının vücudnamələrinin arxitektonikasında semantik vəhdət daha çox dini motivlərə müraciətlə qurulur.

**“Dini motivlər”** adlanan bənddə vücudnamələrin tarixi təkamülündə əsas qaynaq kimi çıxış edən dini mənbələrdən bəhs olunur.

Vücudnamə məzmun etibarilə insanın yaranmasını, dünyaya gəlməsini, ömrünün mərhələ və yaşlarını, ölməsini, axirət dünyasını təsvir edən janrdır. Həm məsnəvi yaradıcılığında, həm də aşıq şeirində qələmə alınan vücudnamələrin ilkin qaynağı kimi Quran ayə və surələri mühüm mənbə olaraq çıxış edir. Qaraxanlılar dövründə - türklərin islamı qəbul etməsindən sonra yaranan ədəbi nümunələrdə bu dinin təsiri altında qələmə alınan bədii örnəklər diqqəti cəlb edir. İslami türk ədəbiyyatının ilk nümunələrindən olan “Qutadqu-bilik” əsəri həm də məsnəvi yaradıcılığında ilk vücudnamə mətninin yer aldığı bir nümunədir. Ümumiyyətlə, Orxon abidələrindən sonra yazılı ədəbiyyatda ilk vücudnamə örnəyi “Qutadqu-bilik” əsərində qarşımıza çıxır. Həmin nümunədən başlayaraq, türk şeirində islam təsiri bariz şəkildə görünməyə başlayır.

Vücudnamələrdə də daha çox iqtibaslar vasitəsilə Qurandan müxtəlif kəlam və fikirlərin verildiyini müşahidə edirik. Vücudnamələrdə Qurana istinadın ən başlıca səbəblərindən biri onun didaktik aspektdə qələmə alınması və janrın semantik tələbindən də irəli

gəldiyi üçün müəllifin öz fikirlərini bu müqəddəs kitab əsasında qüvvətləndirmə istəyidir. Başqa sözlə, vücudnamə və nəsihətnamə müəllifləri öz fikirlərini gücləndirmək üçün xalq dilindən gəlmə fikir və düşüncələrə yer verdikləri kimi, Qurana da mühüm qaynaq kimi əsaslanmaları janrın məzmununda ayə və surələrin yer alması ilə nəticələnir.

Türk xalqları ədəbiyyatında vücudnamələrin ümumi semantik arxitektonikası dini məzmuna malikdir. Türk xalqlarının vücudnamələri Əhməd Yəsəvi yaradıcılığından başlayaraq, aşağıdakı dini semantik qruplar ətrafında formalaşır:

a) Allah, b) mələklər; c) dini kitablar; d) peyğəmbərlər; e) ayələr və surələr; f) axirət; g) qiyamət; h) cənnət; i) cəhənnəm.

Bunlar arasında birinci növbədə Allah yaradıcı varlıq kimi çıxış etdiyi üçün semantik strukturda da ilk sırada yer alır. Ümumiyyətlə, bir qayda olaraq, vücudnamələrdə kainatın və insanın yaradıcısı Allahdır. Bu kontekstdə bir çox vücudnamələrin arxitektonikası aşağıdakı məzmun xətti üzrə qurulur:

1) yaradılış 2) insan həyatı 3) ölüm 4) axirət.

Dini motivlər daha çox 1-ci, 2-ci və 4-cü mərhələnin təsvirində üzə çıxır və müəllif paradiqmasında Quran ayə və surələrinə müraciət didaktik yöndən fikri qüvvətləndirmək üçündür. Təsəvvüfi aspektdə qələmə alınmış vücudnamələrdə insan ömrü də bir rəmzi xarakter daşıyır və mərkəzi xəttində kamil insan problemi durduğu üçün Qurandan çıxış edilərək bu dünyanın faniliyi, axirətin həyatda yaşayarkən qazanılmasının vacibliyi vurğulanır. Vücudnamələrdə Qurandan iqtibaslar müxtəlif baxımdan diqqəti cəlb edir.

İslam dini yayıldıqdan sonra müsəlmanlar arasında Quran ayələri ilə yanaşı, hədislər yayılır, Qiyamət və axirət dünyası ilə bağlı dünyagörüşün yaranmasına səbəb olur, həmçinin çoxlu sayda hədislər islamın yayılmasında böyük rol oynayır. İslam dininin təsiri altında qələmə alınan bədii əsərlərdə isə həmin surə və hədislərin güclü təsiri özünü göstərir. Belə ki, vücudnamələrin ideya qaynaqlarından ən başlıcası Quran olmaqla yanaşı, hədislər də aparıcı mövqedə çıxış edir.

Vücudnamə yazarları bütün islam dünyasında məşhur olan bu hədislərin təsiri altında şeirlər yazmışlar. Vücudnamə mətnlərində

hədislərdən qaynaqlanan aşağıdakı motivlər aparıcıdır:

1) Qəbir əzabı;
2) İnkir və Minkir;
3) Şamda Qiyamətin qopması;
4) Şəfaət və s.

Bütün bu motivlərə ömrün sona çatmasından sonrakı mərhələnin təsvirində müraciət edildiyini görürük. Dini-mistik vücudnamələrin sonunda Əzrayılın can alması, insanın qəbirə qoyulması, burada iki mələyin gələrək onu sorğu-suala tutması, İsrafilin sur çalması və Şamda bütün insanların toplanması ilə bağlı təsvirlər var. Bu təsvirlər əsasən hədislərdəki rəvayətlərdən çıxış edilərək qələmə alınmışdır.

Hədislərdə Münkər və Nəkir adlı iki mələk və qəbir əzabı haqqında geniş məlumat verilir. Həmin mələklər öldükdən sonra insanları sorğu-suala çəkirlər.

Bir çox vücudnamələrin sonunda qəbirdə Münkərlə Nəkirin təsviri xüsusi yer tutur. Bəzi vücudnamə müəllifləri tərəfindən isə həmin mələklər "iki kimsə" adlandırılır. Hədislərdə qeyd edildiyi kimi, "iki kimsə" qəbirə qoyulmuş şəxsi sorğu-sual edirlər. Vücudnamələrdə Münkərlə Nəkir həmçinin "qəbir mələkləri" kimi də səciyyələndirilir. Beləliklə, vücudnamələrdə insan ruhlar aləmindən dünyaya gəlib, yenə həmin aləmə geri dönən bir varlıq kimi təsvir edilir. Axirət aləmi insanın ölümdən sonrakı həyatı olaraq vücudnamələrdə xüsusi yer tutur. Qəbirdə başlayan axirət "bərzəx aləmi"ndəki Qiyamət gününü gözləmə müddəti ilə davam edir. Qiyamət günündə sur üflənir və insanlar əbədi yaşayacaqları dünyaya – cənnət və ya cəhənnəm aləminə gedirlər. Həmin gün müsəlmanlara şəfaət edəcək şəxs Məhəmməd peyğəmbərdir. Hədislərdə verilən və Quran ayələrində bununla əlaqədar məlumatlar vücudnamə müəllifləri tərəfindən insan ömrünün axirətlə bağlı son mərhələsi kimi əks olunur.

Beləliklə, mətnlərarası əlaqədə vücudnamələr islami dəyərlər kontekstində formalaşmışdır. Vücudnamələrdə dini motivlər eyni zamanda peyğəmbərlərlə bağlı hadisə və rəvayətləri də əhatə edir. Ayrı-ayrı peyğəmbərlər haqqında bu rəvayətlər, adətən, mətnlərə təlmih poetik fiquru vasitəsilə daxil edilir.

Bu baxımdan Qurandan qaynaqlanan qissələr, “Şahnamə”dən gələn mövzular, həmçinin eşq simvoluna çevrilən aşiqlərlə bağlı əhvalatlar vücudnamə yaradıcılığında da tez-tez istifadə edilən təlmihlər sırasında yer alır. Klassik ədəbiyyatda müraciət edilən təlmihlərlə vücudnamə yaradıcılığındakı təlmihlər arasında eyniyyət diqqəti cəlb edir. Vücudnamələrdə istifadə edilən təlmihləri aşağıdakı kimi qruplaşdıra bilərik:

1. Quran qissələri, hədis və dini rəvayətlərlə bağlı təlmihlər;
2. “Şahnamə” ilə bağlı təlmihlər;
3. Aşiqlərlə bağlı təlmihlər;
4. Əfsanələrlə bağlı təlmihlər və s.

Quranda müxtəlif peyğəmbərlərin həyatları ilə bağlı bir çox qissələr var ki, bunlar müsəlmanlar arasında və islami ədəbiyyatda geniş yayılmışdır.

Beləliklə, müxtəlif türk xalqlarının vücudnamə yaradıcılığında dini motivlər diqqəti cəlb edir. Bu da vücudnamələrin eyni zamanda nəsihətamiz və ibrətamiz səciyyə daşıması, həmçinin islami türk ədəbiyyatından qaynaqlanması ilə bağlıdır.

**“Tarixi üslubi semantika”** adlanan paraqrafda bildirilir ki, türk xalqlarının vücudnamə yaradıcılığı dil və üslub baxımından özünəməxsus poetik sistemə malikdir. Təbii ki, uzun əsrlik vücudnamə yaradıcılığında folklor və yazılı ədəbiyyat örnəkləri fərqli üslubi özəlliklər göstərir. Ümumilikdə insan ömrünün tərənnüm və təhkiyəsindən ibarət olan vücudnamələr öz yazarının kimliyindən, hansı dövrdə yaşamasından, hansı türk xalqının nümayəndəsi olmasından asılı olaraq, fərdi dil özəllikləri və üslubi keyfiyyət qazanır. Orta əsrlərdə qələmə alınmış vücudnamələrlə daha sonrakı dövrlərin məhsulu olan nümunələr arasında ədəbi dil tarixi kontekstində üslubi fərqlər, leksik qatda gedən dəyişiklər üzə çıxır. Türk xalqlarının yazılı ədəbiyyatında ilk örnəklərdən olan Əhməd Yəsəvinin vücudnaməsi semantik baxımdan dini-təsəvvüfi mahiyyət daşıyır və lüğət tərkibi də bu məzmunla səsləşir.

Yazılı ədəbiyyatda vücudnamələrin ilk örnəyinə Orxon abidələrində rast gəlindiyi üçün bu janrın dil tarixi etibarilə təhlilinə Göytürk dövründən başlamaq lazımdır. Kül Tiqinin yeddi, Bilgə Kağanın isə səkkiz yaşından etibarən qəhrəman kimi özəlliklərindən bəhs edilir.

Qəhrəmanın ömür salnaməsini təsvir edərkən ayrı-ayrı yaşlar üzrə səciyyələndirmə verilir.

Xaqaniyyə türkcəsi dövrü vücudnamə yaradıcılığında xüsusi bir mərhələdir. Yusif xas Hacibin "Qutadqu bilik", Əhməd Yəsəvinin "Divani-hikmət" əsərləri orta türk dövrünün islam təsiri altında qələmə alınmış möhtəşəm abidələridir. Əgər Göytürk mətnlərində insan ömrünün təsviri qəhrəmanlıq motivi ilə sıx əlaqədə verilirsə, Əhməd Yəsəvi yaradıcılığından başlayaraq yeni üslubi çalar qazanır. "Qutadqu-bilik"də insanın yaşının təsvirinə qırx yaşdan başlanılmaqla yanaşı, Göytürk abidələrindəki paradiqmatik yanaşmanı da görmək mümkün deyil. Bu mətndə insan bir ictimai-siyasi xadim, qəhrəman olaraq deyil, ömrünün sonuna doğru yaxınlaşan fərd kimi təsvir edilir. İslamın təsiri duyulan əsərin vücudnamə parçasında da axirətə hazırlıqla bağlı didaktik məzmun yeni üslubi çalar kimi diqqəti cəlb edir:

*Odungıl ay kökçin ölümke anun*
*Bu keçmiş kününgke sıgıt kıl ünün*

*Keçip bardı öd kün yavalık bile*
*Bu kalmış kününg birle uzrüng tile.*

Tərcüməsi: *Ey kır saçlı uyan, ölüme hazırlan; geçmiş günlerin için ağla ve sızla.*

*Hayat boş yere geçti gitti, bari bu kalan günlerini tövbe ve istiğfar ile geçir.*[56]

Eyni arxitektonik məzmun Əhməd Yəsəvinin də vücudnaməsi üçün səciyyəvidir və onun hikmətləri vasitəsilə vücudnamə öz inkişafında təsəvvüfi çalar qazanır. Əhməd Yəsəvi vücudnamə janrına islam dini ilə bağlı anlayışları və təsəvvüfi məzmunu daxil edir. Göytürk dövründə yeddi yaş qəhrəmanlığın və igidliyin başlanğıc dövrüdürsə, Əhməd Yəsəvinin fərdi üslubunda həmin yaş Arslan Baba ilə görüş yaşıdır.

Dil tarixi baxımından əski Anadolu türkcəsi dövrünün ən məşhur nümayəndələrindən biri Aşıq Paşadır. Aşıq Paşa "Qəribnamə" məsnəvisində və "Səma" risaləsində vücudnaməyə müraciət etmişdir. Aşıq Paşanın fərdi üslubunun formalaşmasında, ümumiyyətlə, Əhməd Yəsəvi

[56] Çelebioğlu, Â. Türk Edebiyatında Yaşnameler / Â.Çelebioğlu. Eski Türk Edebiyatı Araştırmaları. – İstanbul: MEB.Yay., – 1998, – s. 383-384

yaradıcılığı böyük rol oynadığı üçün bu vücudnamələr də bədii səciyyəsinə görə onun hikmət-vücudnamələri ilə səsləşir və təsəvvüfi qəliblər, məcazlar üzərində qurulmuşdur. Anadolu türkcəsi ilə bəzi mənsur vücudnamələr də qələmə alınmışdır. Həmin əsərlər klassik ədəbiyyata məxsus leksik-üslubi özəllikləri daşıyır. Bu vücudnamələrdə ömrün fəsillərə bənzədilərək təsviri aparıcıdır. Aşıq Paşa yaradıcılığından başlayaraq, vücudnamələrin semantikasına daxil edilən bu üslubi özəllik sonrakı dövrlərdə də davam etdirilir. Aşıq Paşa həmçinin özündən əvvəlki ənənədən də yararlanır, belə ki, "Qutadqu-bilik"də olduğu kimi, burada da ömrü mənasız yerə keçirməmək, hər keçən günün, ötən ömrün qədrini bilmək tövsiyə edilir.

Vücudnamə yaradıcılığı yeni türk dövründə aşıq yaradıcılığı ilə xarakterizə edilir. XVI əsrdən sonrakı mərhələ aşıq yaradıcılığının formalaşmasında və inkişafında xüsusi bir dövrdür. Həmçinin türk dillərinin diferensiallaşma mərhələsidir. Bu dövrdə aşıq yaradıcılığında ilk vücudnamə nümunələri yaranır. Anadolu, Azərbaycan, türkmən, özbək, qazax kimi türk xalqlarının vücudnamə yaradıcılığı bu dövrdə daha da zənginləşir. Bu dövrün vücudnamələrində əvvəlki dövrün bütün abidələrinin, xüsusilə də Əhməd Yəsəvinin hikmətlərinin qabarıq təsirlərini görmək mümkündür. Bu dövrün vücudnamələrində də didaktik aspekt aparıcıdır. Aşıq yaradıcılığında Qurandan və hədislərdən qaynaqlanma daha çox diqqəti cəlb edir. Ümumiyyətlə, aşıq yaradıcılığından başlayaraq, vücudnamələrin arxitektonikasında axirət dünyasının təsvirinə xüsusi fikir verilir. Qəbir əzabı, Münkərlə Nəkirin sorğu-sualı, Sirat körpüsü, İsrafilin sur çalması, Məhəmməd peyğəmbərin şəfaətçi olması kimi motivlər məhz aşıq vücudnamələrində qarşımıza çıxır. Həmin vücudnamələr heca vəznindədir.

Təbii ki, ayrı-ayrı aşıqların fərdi üslubunda müxtəlif özəlliklər özünü göstərsə də, qəlib və formullar onların yaradıcılıq arxitektonikasının universallığına çevrilir. Əslində aşıq yaradıcılığına məxsus vücudnamə mətnləri ümumi məzmun və forma özəllikləri ilə diqqəti cəlb edir. Aşıqların yaradıcılığında fərdi üslubi özəlliklər və motivlər tərcümeyi-hal xarakterli vücudnamə mətnlərinin yaradılması ilə də səciyyələnir.

Müasir və ən yeni türk dövrü vücudnamə yaradıcılığı XX-XXI əsrləri əhatə edir. Müasir dövr vücudnamə yaradıcılığının üslubi özəllikləri tarixi kontekstlə əlaqədardır. 1920-ci illərdən sonra bir çox türk xalqlarının sovet hakimiyyətinə daxil olması onların vücudnamə

yaradıcılığında da spesifik üslubi dəyişmələrin baş verməsinə səbəb olur. Artıq dini məzmunlu vücudnamə yaradıcılığında bir tənəzzül dövrü yaşandığı kimi, janra davam edən bir çox aşıqların da vücudnamələrində sovet dövrünün mədhi, dövrlə əlaqədar terminologiyanın daxil olmasını görə bilirik.[57]

*Türkoloji dilçilikdə ən yeni dövr türk dövrü 1990-cı illərdən sonrakı mərhələ kimi xarakterizə olunur.*[58] Həmin dövrdən etibarən vücudnamələrin formasında sərbəst şeirə meyllənmə müşahidə edildiyi kimi, məzmunda da ictimai mövzulara yönəlmə özünü göstərir. Qadınlarla bağlı vücudnamələr, ana bətnində körpələrin məhv edilməsi kimi məsələlər ən yeni dövrdə diqqəti cəlb edir.

Dördüncü fəslin **"Təhkiyə qəlibləri - arxetiplər"** asdlanan bəndində qeyd edilir ki, vücudnamələr arasında semantik vəhdəti təmin edən ən mühüm amillərdən biri arxetiplərdir. Arxetip mətnlərarası əlaqədə mifik mətnlərdən ən yeni dövr müəlliflərinin yaradıcılığına qədər genetik yaddaşa əsaslanan simvollardır.

Arxetip məfhumu Karl Qustav Yunq tərəfindən irəli sürülən, psixoloji və fəlsəfi yöndə izah edilən bir termindir. Yunqa görə, arxetip insan təxəyyülündə kollektiv təhtəlşüurun qəlibidir. O, bu məfhumu Platonun ideya qavrayışı ilə müqayisədə təqdim edir. Platona görə, hər bir varlıq maddiləşmədən öncə metafiziki aləmdə ideyalar şəklində mövcuddur. Yunq arxetip dedikdə, məzmunu deyil, sadəcə formanı nəzərdə tutduğunu dəfələrlə vurğulayır.

Arxetiplər həm şifahi, həm də yazılı ədəbiyyat nümunələrində özünü göstərir. Aşıq yaradıcılığında da əsrlərdən-əsrlərə ötürülən ortaq bədii təcrübə nümunələri kimi bu cür arxetiplərə rast gəlirik. Bu cür arxetiplər kollektiv təhtəlşüurun ortaq simvolları kimi çıxış edir. M.Baxtin tərəfindən müxtəlif mətnlər arasındakı bu cür əlaqə zənciri mətnlərarası dialoq və ya polifoniya adlandırılır. Bu cür polifonik elementlər miflərdən klassik şeirə oradan isə aşıq şeirinə qədər nüfuz edir. Vücudnamələrdə müdrik qoca, dörd ünsür, ana, mağara, kölgə, qəhrəman, say kimi arxetiplərə rast gəlirik.

K.Qustav Yunqun müəyyənləşdirdiyi arxetiplərdən biri müdrik qoca

---

[57] Memmedova-Kekeç, E.F. Sovyetler Dönemi Yaşnamelerinin Muhteva Özellikleri (Türkmen, Azerbaycan ve Karakalpak Yaşnameleri Örneğinde) // – Ankara: Folklor/Edebiyat dergisi, cilt 22, sayı 88, – 2016/4, – s. 217-225

[58] Xəlilov, B. Türkologiyaya giriş / B.Xəlilov – Bakı: Bakı Çap Evi, – 2013. – s.163

arxetipidir. Bu arxetip qəhrəmanın çətin məqamlarında onun köməyinə yetişir və təzahür formaları müxtəlifdir. Yunq bunu "ruh arxetipi" olaraq müəyyənləşdirmişdir. Əhməd Yəsəvinin vücudnaməsində müdrik qoca arxetipinin təzahür formaları aşağıdakılardır: ruhlar, peyğəmbərlər, Çil-tən, Xızır, Arslan Baba, Piri-Muğan, Ulular.

Daha sonra aşıq yaradıcılığında isə müdrik qoca arxetipi qəhrəmanın axirət dünyasında ona kömək etmək, Münkirlə Nəkirin sorğu-sualından, qəbir əzabından xilas etmək üçün köməyinə çatır.

Bir çox vücudnamələrdə ana arxetipi "dərya", "rəhm", "ana südü", "qəbir" kimi simvollarla ifadə edilir.

Əhməd Yəsəvidən başlayaraq, vücudnamə mətnlərində qəhrəman arxetipini görə bilirik. Yunqa görə, yuxuda, nağıl və mifdə qəhrəman səyahətə çıxır və müəyyən müddətdən sonra geri dönür. Təbii ki, bu səyahət və ya yolçuluq zamanı onun başına bir çox hadisələr gəlir, baş verənlər isə onun kamilləşməsində mühüm rol oynayır. Vücudnamələrdə də bu cür dünyəvi səyahətdən söhbət getməsə də, dünyaya səyahətdən - ruhun seyrindən bəhs olunur. Metafiziki aləmdən fiziki aləmə gələn, sonra yenə də metafiziki aləmə geri dönən ruh qəhrəman arxetipini simvollaşdırır. Vücudnamələr məzmunca insanın yaradılması, dünyaya gəlməsi və geri dönməsi şəklində xülasə edilir.

Vücudnamələrdə say arxetipi xüsusi yer tutur və saylara ümumiyyətlə, aşağıdakı məqsədlərlə müraciət edilir:

1) İnsanın ruhlar dünyasında yaradılış prosesini ifadə etmək üçün istifadə edilən saylar;

2) Ana bətnindəki insanın anatomiyasını ifadə etmək üçün istifadə edilən saylar;

3) İnsan ömrünü yaşlar üzrə təsvir etmək üçün istifadə edilən saylar.

Dissertasiyanın dördüncü fəslinin **"Təhkiyə qəlibləri- formullar"** adlanan bəndində vücudnamələrin narratoloji strukturunda əsas elementlər olan təhkiyə qəliblərindən bəhs edilir. Vücudnamələrin arxitektonikasında bu qəliblər təhkiyəni asanlaşdırır, hazır yaddaş materialı kimi çıxış edir. Həmin qəlibləri formullar kimi dəyərləndirə bilərik.

Vücudnamələrin poetik sistemini şərtləndirən amillərdən biri də bütün müəlliflər tərəfindən müraciət edilən, bəzən hazır qəlib kimi eynilə istifadə olunan, bəzən isə dəyişdirilən formullardır. Formullarla bağlı folklorşünaslıqda aparılan tədqiqatlar daha çox dastan və nağıllara tətbiq

edilmiş, digər janrların formullar sistemi ilə bağlı geniş araşdırma aparılmamışdır. Türk xalqlarının vücudnamə yaradıcılığı da formul nəzəriyyəsi müstəvisində indiyə qədər öyrənilməmiş problemlərdəndir.

Formul əslində təhkiyənin stereotip elementidir və müxtəlif söyləyicilərin dilində hazır qəliblər kimi nəqletməni formalaşdıran müxtəlif səviyyəli struktur ünsürü kimi çıxış edir. *"Təkrarlılıq formulanın başlıca funksional keyfiyyətidir. Bir tərəfdən formula, digər tərəfdən improvizasiya şifahi söz sənətinin iki qütbü kimi bir-birini tamamlayır"*.[59] Biz də tədqiqatımızda bu qütblərin vücudnamə yaradıcılığında necə reallaşdığını müşahidə edirik. 200-ə yaxın vücudnamə mətninin bir tərəfdən təkrar edilən qəliblər əsasında qurulduğunu, digər tərəfdən hər dəfə yeni vücudnamə müəllifi tərəfindən yaradıcılıq aktının gerçəkləşdiyini, müxtəlif improvizələrlə ənənəvi olana yeni məzmun və forma özəlliyinin gətirildiyini görürük.

Elmi-nəzəri ədəbiyyatda formulların təsnifi ilə bağlı müxtəlif bölgülər də aparılmış, təhkiyənin müxtəlif hissələrində istifadə olunan formullar linqvistik və məntiqi prinsiplərlə təsnif edilmişdir:

1) *Sintaqmatik prinsip*
2) *Semantik prinsip*
3) *Linqvistik prinsip*[60]

Vücudnamələrdə də bu cür təhkiyə qəliblərini görə bilərik. Vücudnamələrin semantikası insan ömrü ilə bağlı olduğu üçün bütün örnəklər universal məzmun səciyyəsi üzərində qurulur. Ayrı-ayrı müəlliflər tərcümeyi-hal və ya ümumi olaraq insan ömrü haqqında vücudnamə yaradarkən semantik baxımdan ümumi olan söz və ifadələrdən istifadə edirlər. Bu baxımdan həmin formulları başlanğıc, medial və sonluq formulları şəklində qruplaşdıra bilərik.

Sintaqmatik baxımdan vücudnamə formullarında başlanğıc qəliblər iki qrupa ayrılır:

1) Dini-təsəvvüfi vücudnamələr üçün səciyyəvi olan başlanğıc formulları;

2) Sadəcə insan ömrünü əks etdirən vücudnamələr üçün səciyyəvi olan başlanğıc formulları.

---

[59] Nərimanoğlu, K. V. Azərbaycan eposunun poetik sintaksisi / K. Nərimanoğlu – Bakı: Oskar, – 2009. – s. 240
[60] Yenə orada, s. 249

Birinci qrup üçün ruhi başlanğıc əsas olduğu üçün müəllifin söz dağarcığında da bununla əlaqədar olaraq səciyyəvi dini-təsəvvüfi standart sözlər yer alır və başlanğıc formullar kimi çıxış edir.

**Başlanğıc formulu:**

***1) Yoxdan var etmək//eyləmək***

***Yoğurdu balçığım** yoktan var etti*[61]***;** Bizi **yoktan var eyledi***[62]***; Yoktan var edip** seyredin âlemi*[63]***;** Gudratyn bildirdi**, ýokdan bar etdi***[64] *(Qüdrətin bildirdi**,** yoxdan var etdi)**;** Yox**dan məni** var **edəndə ilahım.***[65]

**Keçid formulu:**

***1) Bədrlənmiş ay olmaq.***

*Dokuzumda **bedirlenmiş ay oldum**[66]; On beşimde **bedirlenmiş ay oldum**[67]; Səkkizində hilal qaşlar əyilir, Vəchi **bədirlənir**, xumar göz olur[68]; On dördündə **bədirlənmiş ay oldum**[69]; On beşində **bədirlənmiş ay oldum**[70]; On beşində döndüm **bədirlənmiş aya**[71]; Otuzunda tutdum maya, **Bədirlənmiş döndüm aya**[72].*

**Sonluq formulu:**

***1) Saç-saqqalı ağarmaq:***

*Əlli yaşa yetdüm, **ağardı saqqal**[73]; Əlli beşdə qalmaz dünya*

---

[61] Kaya, D. Yaşnameler / D.Kaya– Ankara: Akçağ Yayınları, – 2004, – s. 198
[62] Yenə orada, s. 380
[63] Yenə orada, s. 326
[64] Fikrətqızı, E. Türk xalqları ədəbiyyatında vücudnamələr: [2 cilddə] / E. Fikrətqızı.– Bakı: Elm, – c. 1. 2015. – s. 159
[65] Yenə orada, s. 38
[66] Kaya, D. Yaşnameler / D.Kaya– Ankara: Akçağ Yayınları, – 2004, – s. 368
[67] Yenə orada, s. 206
[68] Fikrətqızı, E. Türk xalqları ədəbiyyatında vücudnamələr: [2 cilddə] / E. Fikrətqızı.– Bakı: Elm, – c. 1. 2015. – s. 59
[69] Yenə orada, s. 201
[70] Yenə orada, s. 28
[71] Yenə orada, s. 29
[72] Yenə orada, s. 57
[73] Yenə orada, s. 154

*işinə,* ***Qar yağar çal uğrar görklü başına***[74]; *Altmışda sini-salım bitirdim,* ***Saqqalım ağardı****, sözüm itirdim*[75]; ***Saçu sakal hub akardı*** *könglüm kara, Ruz-ı mahşer rahm itmeseng halım tebah.*[76]

Dissertasiyanın "**Poetik qəliblər"** adlanan bəndində poetik fiqurlardan bəhs edilir**.** Janrın arxitektonikasında poetik qəliblər adlandırdığımız poetik fiqurlar insan ömrünün müxtəlif aşıq və şairlərin bədii təxəyyülündəki bənzətmə və məcazlarla təqdimində üzə çıxır.

Vücudnamələr arasında bəzi nümunələrə rast gəlirik ki, bu örnəklər tamamilə təşbehlər üzərində qurulmuşdur. "Bənzərsən" rədifli vücudnamənin Azərbaycan, Türkiyə, Türkmənistan və Kıbrıs variantları bunun bariz nümunəsidir. Ümumiyyətlə, şifahi xalq ədəbiyyatı nümunələri kimi qələmə alınmış vücudnamələrin, əsasən, bənzətmələr üzərində qurulduğunu deyə bilərik. Bu vücudnamələr daha çox zoomorfik səciyyəlidir.

Vücudnamələrdə təşbehlər daha çox ilin fəsilləri ilə əlaqədə verilir. Vücudnamə arxitektonikasında bu cür bənzətmə klassik ənənədən qaynaqlanır.

Vücudnamə yaradıcılığında tez-tez müraciət edilən poetik fiqurlardan biri də təzaddır. Ömrün müxtəlif illərinin müqayisəli təsvirində daha geniş mətn daxilində və ya misradaxili, misralararası kontekstdə ziddiyyətlərin təsviri ilə təzadlar verilir:

*Yüz yaşında iman gərək yarısa,*
*Vəsiyyətin edər sözü varısa,*
*Qurbani der, ömür yüz qarısa,*
*Könül der, təzəyəm, buta yaxşıdır.*[77]

Bu nümunədə təzadlılıq antonim sözlər vasitəsilə deyil, mətndaxili mənanın müqayisəli təqdimi ilə yaradılır. Ömür ötüb keçir, insan fiziki baxımdan qocalır, bəzən insanın ruhu isə bütün bu fizioloji prosesə baxmayaraq, cavan qalır.

Beləliklə, vücudnamələrin arxitektonikasında poetik qəliblər adlandırdığımız bədii obrazlar sistemi rəngarəngliyi ilə seçilməklə

---

[74] Fikrətqızı, E. Türk xalqları ədəbiyyatında vücudnamələr: [2 cilddə] / E. Fikrətqızı.– Bakı: Elm, – c. 1. 2015. – s. 68

[75] Yenə orada, s. 184

[76] Kaya, D. Yaşnameler / D.Kaya– Ankara: Akçağ Yayınları, – 2004, – s. 124

[77] Fikrətqızı, E. Türk xalqları ədəbiyyatında vücudnamələr: [2 cilddə] / E. Fikrətqızı.– Bakı: Elm, – c. 1. 2015. – s. 168

yanaşı, vücudnamələrin tarixi inkişafında yeni müəlliflər tərəfindən daha da zənginləşdirilmişdir.

Nəticədə dissertasiya boyu əldə edilən müddəalar ümumiləşdirilmişdir.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

## Kitablar

1. Türk xalqları ədəbiyyatında vücudnamələr: [2 cilddə] / E. Fikrətqızı.– Bakı: Elm, – c. 1. 2015. – 224 s.
2. Türk xalqları ədəbiyyatında vücudnamələr: [2 cilddə] / E. Fikrətqızı.– Bakı: Elm və təhsil, – c. 2. – 2018. – 316 s.
3. Devriye, Yaşname, Elifname / E.Memmedova-Kekeç – Almaniya, Saarbrücken: Türkiyə Alim Kitabları Nəşriyyatı, – 2016. – 112 s.
4. Vücudnamələrdə mətnlərarası əlaqə – Bakı: Elm və təhsil, – 2018. – 256 s.

## Məqalə və tezislər

5. Vücudnamə: mənşəyi və variantları // – Bakı: Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, AMEA Folklor İnstitutu, – 2010, sayı: 32, – s. 119-132
6. Azerbayjan, Kipr we Türkmen Edebiyatyndaky Yaşnama // Mollanepes we XIX Asyr Türkmen Durmuşy halklara ylmy maslahatyn nutuklarynyn gysgaca beyany, 2010-njy yylynyn 8-10-nyj apreli, – Mary, – 2010, – s. 78-79
7. Məxdumqulu Fəraqi və Molla Nəfəsin vücudnamələri // – Bakı: Azərbaycan şərqşünaslığı jurnalı, – 2010, sayı 2, – s. 9-14
8. Dastan ənənəsi kontekstində klassik vücudnamələr (Güney Azərbaycandan toplanmış yeni örnəklər) // "Türk epik ənənəsində dastan" Ortaq türk keçmişindən ortaq türk gələcəyinə VI Uluslararası folklor konfransının materialları. – Bakı, 25-26 noyabr, –2010, – s. 167-172
9. Çağdaş vücudnamələr // – Ankara: Motif Akademi Halkbilimi Dergisi, – 2010, sayı: 2, – s. 52-57
10. Türk Tasavvuf Şiirində Elifname-Yaşnamenin Senkretik Bir Örneği Üzerine // XXI. Yüzyılda Türk Dünyası Uluslararası Sempozyum Bildirileri. – Lefke – K.K.T.C 02 - 05 Aralık 2010, – Ankara:

EkoAvrasya Yayını, – 2011, – s. 231-243

11. Qazax vücudnamələri // – Bakı: Şərq filologiyası məsələləri – 2012, VI buraxılış – s. 555-568

12. Yaşnamenin Gelişimi Üzerine // – Ankara: Motif Akademi Halkbilimi Dergisi. Azerbaycan Özel Sayısı, – 2011, sayı:1, – s. 176-187

13. Müxtəlif türk dillərindəki vücudnamələrdə linqvo-semantik paralellər // "Qafqaz xalqlarının folkloru və linqvokulturologiyası" Beynəlxalq Simpoziumu. AMEA Folklor İnstitutu, İ.Cavaxişvili adına Tbilisi Dövlət Universiteti, Türkiyənin Ardahan Universiteti, Qafqaz Universitetlər Birliyi, Türk Dünyası Mühəndislər və Memarlar Birliyi, Valeh Hacılar Beynəlxalq Elmi-Mədəni Tədqiqat Fondu, Suxumi Dövlət Universiteti, – Tiflis şəhəri, 18-21 aprel 2012, – Bakı, "Elm və Təhsil", – 2012, – s. 96-109

14. Qırğız və tatar xalq dastanlarında ("Manas" və "Edigey") vücudnamə // "Yeni çağırışlar: müasir şəraitdə elmi innovativ tədqiqat işlərinin təcrübi və tətbiqi əsasları" Gənc alimlərin elmi konfransının materialları, – Bakı, 25-27 iyul, 2012-ci il. – Bakı: Elmin İnkişafı Fondu, – 2012, – s. 263-266

15. Türk Dünyasında Yaşnameler (Azerbaycan, Kazak, Türkiye, Türkmen, Özbek, Kıbrıs Türk, Başkurt, Tatar, Uygur) // V. Uluslarası Türkoloji Kongresi "Kültürel Etkileşim ve Medeniyetler İttifakı". Hoca Ahmed Yesevi adına Uluslararası Türk-Kazak Üniversitesi, Kazakistan, – Türküstan, 19-20 aprel, – 2013, – s. 293-301

16. Kıbrıs Yaş Destanları Üzerine Genel Bir Değerlendirme // – Ankara: Motif Akademi Halkbilimi Dergisi, Kıbrıs Özel Sayısı, – 2013, Pınarbaş Matbaası, sayı: 1, – s. 243-259

17. Yunus Əmrənin "Düşdü könül" qəzəlinin poetik forması haqqında: dövriyyə, yoxsa vücudnamə? // Böyük türk şairi Yunus Əmrənin həyat və yaradıcılığına həsr olunmuş "Yaşayan Yunus Əmrə" Beynəlxalq Elmi Konfransının Materialları, Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu, TC-nin Bakıdakı Səfirliyinin Kültür və Tanıtma Müşavirliyi, TİKA, Yunus Əmrə Türk Kültür Mərkəzi, 9 dekabr, 2013-cü il, – Bakı: "Elm və təhsil", – 2013, – s. 478-490

18. Bir vücudnamənin iki müəllifi: Xəstə Hasan və Aşıq Abbas

Tufarqanlı // “Azərbaycan Şərqşünaslıq Elminin İnkişaf Yolları” Akademik Vasim Məmmədəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransın materialları, 27-28 iyun, 2013, – Bakı: Bakı Çap Evi, – 2013, – s. 177

19. Modern vücudnamə örnəkləri və özəllikləri // – Bakı: Şərq filologiyası məsələləri, MA Kompani, – 2013, – s. 456-466

20. Vücudnamələrin Azərbaycan ədəbiyyatşünaslığında öyrənilməsi tarixindən // – Bakı: Gənc Alimlərin Əsərləri, Azərbaycan Respublikası Gənclər və idman Nazirliyi, Azərbaycan Gənc Alim, Aspirant və magistrlər Cəmiyyəti,– 2013, sayı: 8, – s. 337-343

21. Çağdaş vücudnamələrin forma və məzmun özəllikləri // – Bakı: Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, AMEA Folklor İnstitutu, – 2014, 3 (45), Sayı: 2, – s. 61-73

22. “Koroğlu” dastanının Azərbaycan, özbək, türkmən, uyğur variantlarındakı vücudnamələr // – Bakı: AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun “Elmi araşdırmalar”ı (elmi-nəzəri məqalələr toplusu) – 2014, X buraxılış, – s. 31-38

23. Didaktik vücudnamələr // – Bakı: Sivilizasiya jurnalı, Bakı Avrasiya Universiteti, – 2015, 7-ci sayı, – s. 31-41

24. Bəhram Əsədinin vücudnaməsində varlıq və onun təkamülü // – Bakı: Qafqaz University Journal, Issues Philology and Pedagogy – 2015, Number 1 , Volume 3, – s. 3-10

25. Bəhram Əsədinin vücudnaməsində varlıq fəlsəfəsinin inikası // Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev anadan olmasının 92-ci ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların III Beynəlxalq Elmi Konfransı, – Bakı, 17-18 aprel, 2015-ci il, – Bakı: Qafqaz Universiteti. Materiallar, II kitab, – 2015, – s. 865-866

26. Türkmən poeziyasında vücudnamənin tarixi seyri (müəlliflər və örnəklər) // “Türk xalqları ədəbiyyatı: mənşəyi, inkişaf mərhələləri və problemləri” mövzusunda beynəlxalq elmi konfransın materialları, AMEA Nizami adına Ədəbiyyat İnstitutu, – Bakı, – 1-2 dekabr 2015-ci il, – s. 215-219

27. Qayğısız Abdalın “Vücudnamə” risaləsində yaradılış və varlıq məsələsinin təsəvvüfi şərhi // – Bakı: Qafqaz University Journal. Philology and Pedagogy, – 2016, Number 1 , Volume 4 , – s. 3-11

28. Ədəbiyyatşünaslıqda arxitektonika termininin anlam dairəsi //

– Bakı: Sivilizasiya jurnalı, Bakı Avrasiya Universiteti, – 2016, 3/27, – s. 15-21

29. Aşıq Valehin “Vücudnamə”sinin arxitektonik təhlili // – Bakı: Dədə Qorqud jurnalı, “Elm və təhsil nəşriyyatı”, – 2016, I (58), – s. 96-101

30. Sovyetler Dönemi Yaşnamelerinin Muhteva Özellikleri (Türkmen, Azerbaycan ve Karakalpak Yaşnameleri Örneğinde) // – Ankara: Folklor/Edebiyat dergisi, cilt 22, sayı 88, – 2016/4, – s. 217-225

31. Aşıq Valehin “Vücudnamə”sində arxetiplər // – Naxçıvan: Naxçıvan Dövlət Universiteti “Elmi Əsərlər” jurnalı. Humanitar elmlər seriyası, – 2017, № 5 (86), – s. 94-99

32. Aşıq Paşanın “Səma” risalə-vücudnaməsində insan ömrünün irfani şərhi // – Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. – 2016, 3 (99), – s. 221-223

33. Türk xalqlarının məsnəvi yaradıcılığında vücudnamələr // – Bakı: Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – 2016, c. 64, sayı: 1, – s. 63-68

34. Mənsur vücudnamə nümunəsi olaraq Sultan II Muradın “Fateh Sultan Mehmedə nəsihətlər” risaləsi // – Bakı: Filologiya məsələləri jurnalı, – 2016, sayı: 9, – s. 390-394

35. Quran vücudnamələrin qaynağı kimi // – Bakı: Sivilizasiya jurnalı, Bakı Avrasiya Universiteti, – 2016, cild, 15, sayı: 3, – s. 206-212

36. Əhməd Yəsəvinin vücudnamə yaradıcılığında təsəvvüfi simvol və qəliblər // – Bakı: Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, AMEA Folklor İnstitutu, – 2016, sayı: 2 (49), – s. 27-34

37. Vücudnamələrin bədii-üslubi xüsusiyyətləri (ümumtürk ədəbiyyatı kontekstində) // Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş “Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar” mövzusunda Beynəlxalq konfransın materialları (II hissə). Bakı, 14-15 noyabr, 2016-cı il, – Bakı: Elm və təhsil, – 2016, – s.291-295

38. Türk xalqları ədəbiyyatında vücudnamələrin ideya-bədii qaynaqları // I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş “Müasir Türkoloji Tədqiqatlar: Problem və Perspektivlər” mövzusunda Gənc Türkoloqların Beynəlxalq Elmi Konfrans, AMEA, Şərqşünaslıq

İnstitutu, AMEA Gənc Alim və Mütəxəssislər Şurası, – Bakı, 21-22 noyabr 2016-cı il, – s. 113-114

39. Vücudnamələrdə ənənəvi üsluba sadiqlik (Aşıq Ağaların "Oyandım" şeiri əsasında) // IV Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumu, – Niğde, – 26-28 Aprel 2017, – s. 213-217

40. Age Poetry As Autobiographic Items In The Literature Of Turkic Nations // International Journal of Scientific and Engineering Research (IJSER) - (ISSN 2229-5518). Volume 7, Issue 12, December-2016, – p. 1260-1265

41. Ahmed Yesevi`nin Yaşnamesinde "Bilge Kişi" Arketipi // – Ankara: Milli Folklor, – 2017, Yıl 29, Sayı 116, – s. 101-111

42. Müasir qırğız şeirində vücudnamə (Abdurayim Şamatovun "Aldadıcı ömür" şeiri əsasında) // Akademik Ağamusa Axundovun 85 illiyinə həsr olunmuş "Ağamusa Axundov və Azərbaycan filologiyası" Beynəlxalq Elmi Konfransının Materialları, 24-25 aprel, – Bakı: Elm, – 2017, – s. 186-188

43. Hədis – vücudnamə şeirinin ideya-məzmun qaynaği kimi // – Bakı: Pedaqoji Universitetin Xəbərləri, Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – 2017, c. 65, N 1 – s. 46-54

44. Türk xalqlarının vücudnamə yaradıcılığında bənzətmələr // "Müasir şərqşünaslığın aktual problemləri" ("Ziya Bünyadov qiraətləri") mövzusunda beynəlxalq elmi konfrans (16-17 oktyabr 2017-ci il, Bakı), AMEA akad. Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutu, Tezislər, , – Bakı: Elnar-2016 Mətbəəsi, – 2017, – s. 105-106

45. Vücudnamələrdə zoomorfik simvolizm // – Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2017, 1 (101), – s. 256-259

46. Vücudnamələrdə təlmih poetik fiqurunun ifadə vasitələri // – Bakı: Filologiya məsələləri, – 2017, N 11, – s. 306-317

47. Aşık Ömer`in "Geldim" Redifli Yaşnamesinde Sayı Sembolizmi // II. Uluslararası Sosyal Bilimler Araştırmaları Kongresi. Bakü, Azerbaycan, 19-21 Ekim, Bildiriler Kitabı – Ankara, – 2017, – s. 330-335

48. "Türk xalqlarının "Vücudnamə" yaradıcılığında təzadlar"// "Müasir dünyada inteqrasiya və elmin aktual problemləri" Respublika Elmi Konfransı, Lənkəran Dövlət Universiteti, 22-23 dekabr, – Lənkəran, 2017-ci il, – s. 107-109

49. Məhtimqulu Fəraqinin ustadnamə və vücudnamələrində insan ömrünün səciyyəsi // Görkəmli türkmən şairi Məhtimqulu Fəraqinin yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında (məqalələr toplusu). – Bakı: Elm və təhsil, – 2017, – s. 184-196
50. Metinlerarası İlişkide Yaş Destanları (Manisalı Cami`nin "Muhabbetname" Mesnevisi ve Oğuz Yorgancıoğlu`nun "Yaş Destanı" Örneğinde) // Üçüncü Uluslararası KIBATEK Kıbrıs Türk Edebiyatı ve Edebiyatçıları Sempozyumu Bildirileri, 5-6 mart 2018, – KKTC, Birinci cilt, Lefkoşa: Çevik Matbaacılık, – 2018, – s. 223-231
51. Mətnlərarası əlaqədə vücudnamələr və müasir türk şeiri // – Bakı: AMEA-nın Xəbərləri. Humanitar elmlər seriyası, – 2018, sayı: 1, – s. 111-116
52. Cemal Hocanın "Yaradılış dastanı"nında ermənilərin Anadoluda türklərə qarşı soyqırım siyasət // – Bakı: Azərbaycan jurnalı, – 2018, sayı: 7-8, – s. 208-213
53. Ramiz Rövşən poeziyası və vücudnamə yaradıcılığı // V Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumu 11-13 oktyabr 2018, – Almatı, Qazaxıstan, – 2018, – s. 388-392
54. Türk Dünyası Aşıklarının Yaşnamelerinin Arketipsel Çözümlenmesi // – Toşkent: Uzbek Folklorşunasliqi Masalalari, Uzbekistan Respublikası Fanlar Akademiyası, Uzbek Tili, Adabeyatı va Folklori İnstitutu, Alişir Navoiy Nomidaqi Davlat Adabiyat Muzeyi, FAN naşriyatı, – 2018, VIII kitop, – s. 140-147
55. Стихотворение Жамбыла Жабаева «Моя жизнь» kak образец вюджуднаме // – Алматы: Вестник Казахского Государственного Женского Университета, Кыздар Университети, – 2018, № 4 (76), – ст. 67-72
56. Janrlararası əlaqədə vücudnamələr // – Bakı: "Poetika.izm" jurnalı, – 2018, sayı 4, – s. 123-129
57. Yaşnamelerde Anne Arketipi (Şeyit Hanum Alişeva`nın "Bir Daha Bir" Şiiri Örneğinde) // – Махачкала: Вестник тюркского мира, Дагестанский Государственный Университет, – 2018, № 1 (13), – s. 29-33
58. Aşık Zileli Talibi ve Mikayıl Azaflı'nın Yaşnamelerinin Metinlerarası Okunması // – Ankara:Yeni Türkiye Dergisi, Azerbaycan

Özel Sayısı 1, Mayıs-Haziran, – 2019, sayı 107, – s. 178-182

59. Vücudnamə yaradıcılığında formullar mətnlərarası əlaqənin elementi kimi // – Bakı: Poetika.izm, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Əsərləri 1, – , 2019, – s. 53-59

60. Türk xalqları ədəbiyyatında əruz vəznli vücudnamələr // – Bakı: “Türkologiya” jurnalı, – 2019, sayı 2, – s. 32-41

61. Межжанровая связь в вуджудname и терме // Фольклор, Тил ва Маданият Масалаларини Илмий Урганишда Фан ва Инновациялар Уйгунлиги мавзусудаги халкаро илмий-амалий конференция, 2019 йил, 7 май, – Тошкент: Навроз нашриёти, – 2019, – с. 139-141

62. Dede Korkut Kitabı’nın Günbet Yazması`ndakı Yaşname Metni Üzerine // – Almanya: Zeıtschrıft Für Dıe Welt Der Türken / Journal Of World Of Turks, – 2019, Vol 11, No. 2, – s. 31-42

63. Vücudnamələrdə fonopoetik məsələlərə dair // – Bakı: Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, 2019, № 1, s. 43-48

64. Традиция вуджудname в литературе тюрских народов и башкирские источники. // – Проблемы востоковедения, – 2020 № 2 (88), – ст. 53-57

65. Yaşnamelerde Mekan Anlayışı (Rza Baharlı`nın Vücudname”si Örneğinde) //Doğan Kaya Armağanı, 70. Yaş Hatırası. Sivas, Vilayet Kitabevi, II cilt, – 2021, – s. 889-898

Dissertasiyanın müdafiəsi 14 mart 2022-ci il tarixində saat $14^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA-nın akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstutunun nəzdində fəaliyyət göstərən FD 1.18 Dissertasiya Şurası bazasında yaradılmış BED 1.18 Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcək.

**Ünvan:** Az-1143, Bakı, Hüseyn Cavid prospekti, 117, AMEA Akademiya şəhərciyi, Əsas bina, VII mərtəbə, akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Akt zalı.

Dissertasiya ilə AMEA-nın akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA-nın akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 11 fevral 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 10.02.2022
Kağız formatı: A 5
Həcm: 90 110
Tiraj: 100